**Əli Əhmədov: “Hər il Azərbaycanın əmək bazarına 100 mindən çox işçi qüvvəsi daxil olur”**



Bax 3

**Bakıda “Seçkinin mediada işıqlandırılması” mövzusunda informasiya sessiyası keçirilib**



Bax 6

**Gözəl və inkişaf edən diyarın adı Naxçıvandır**



Bax 4




“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 008 (5973) 17 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” AzərbaycanXeyriyyə Cəmiyyətinin orqanı.


# 20 Yanvar:

## Milli rəşadət tariximizin müəmmalı məqamları

M.Qorbaçovun sağ əli - Primakov və onun “uşaqlar”ı! SSRİ dağıldıqdan sonra başqa bir ciddi məlumat, yenə Rusiya mətbuatında gündəmə gəldi. Keçmiş Sov.İKP MK Siyasi Bürosunun üzvü Y.Primakov M.Qorbaçov hakimiyyətə gəldikdən sonra xüsusi tapşırıqla bütün respublikalarda ziyalılardan ibarət qruplar yaradıb, idarə edirmiş. Azərbaycanda da “Gənc ziyalılar klubu” deyilən bir qurum...



Bax 13



# İlham Əliyev:

Bax 2



## “Bizim siyasətimiz düşünülmüş və nəticəyə hesablanmış siyasətdir”

## Dünya təşviş içindədir: “Gizli virus” yayılır



Çinin Uhan şəhərində daha öncə rast gəlinməmiş virus ortaya çıxıb. Bu virusun sürətlə yayılması dünyanı narahat etməyə başlayıb.

SİA-nın xarici mətbuata istinadən verdiyi xəbərə görə, virus ilk dəfə ötən ilin dekabr ayında Çinin Uhan şəhərində yerləşən balıq bazarında qeydə alınıb.

İndiyə kimi 41 nəferin virusa yoluxduğu və 7 nəferin vəziyyətinin ağır olduğu bildirilib...

VIRUS

Bax 16



## Yalançı vədləri

### baş nazirin reallaşmayan

*Ermənistanın baş naziri Nikol Paşinyan, il yarımdan artıq bir müddət ərzində Ermənistan üçün son dərəcədə ağır və məyusluqla dolu bir il olduğu artıq sadə erməni vətəndaşında belə şübhə yaratmır. Ancaq onlar belə vəziyyətin yaranmasında nə qonşuları, nə onlardan üz döndərmiş havadarları...*

Bax 9

## “Karyeramda ən mürəkkəb məqam 2018-ci ildə Bakıda baş vermiş insident olub”

“Haas F1” komandasının pilotu Roman Qrojanın karyerasında son 4 ildə uğurlar da çox olub, uğursuzluqlar da. Lakin 2018-ci ildə Bakıda baş vermiş insident ən qəribə hadisə kimi yadda qalıb. O vaxt Qrojanın idarə etdiyi peloton təhlükəsizlik avtomobilinin arxasınca hərəkət edərkən çarxı rezini qızmış və maşın trasın hasarına çırpılmışdı. Hər şeyin təqsirini Markus Eriksonda görürdülər, hərçənd həmin anda İsveç pilot hadisə yerindən uzaqda...



Bax 16

**Mətyu Brayzə: “Əminəm ki, parlament seçkilərindən sonra Azərbaycan daha güclənəcək”**



Bax 5

**Naxçıvan şəhərində “ASAN xidmət” mərkəzi tikiləcək**



Bax 8

**Ukrayna Analitika Mərkəzinin rəhbəri: Azərbaycan cəmiyyətində parlament seçkilərinə maraq yüksəkdir**



Bax 5



# İlham Əliyev:

# “Bizim siyasətimiz düşünülmüş və nəticəyə hesablanmış siyasətdir”

Azərbaycanın son 16 ildə əldə etdiyi möhtəşəm və əzəmətli inkişafı ölkə Prezidenti İlham Əliyevin adı və Onun, bilavasitə həyata keçirdiyi düşünülmüş siyasətlə bağlıdır. On altı il... Bu on altı il, tarix baxımından, qısa bir dövr ərzində Azərbaycan iqtisadiyyatı 3 dəfə artıb və bu, inkişafımızın əsasında dayanan fundamental və ciddi amildir. Bu illər ərzində Azərbaycanda həyat günbəgün dəyişir, insanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yeniləşir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda, insanların düşüncələri də dəyişib. Bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıqla inanır.

Azərbaycan Prezidenti Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, son 16 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür.

## “Bizim siyasətimiz düşünülmüş siyasətdir”

Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilən 2019-cu ilin yekunlarına həsr olunan müşavirədə ölkə başçısı ötən ildə böyük müsbət nəticələrin əldə olunduğunu bildirib: “Keçən il iqtisadi sahədə böyük müsbət nəticələr əldə edilmişdir. Bu nəticələr göstərir ki, bizim siyasətimiz düşünülmüş siyasətdir”.

Dövlət başçısı bildirib ki, Azərbaycan 2019-cu ildə iqtisadi sahədə qarşıda duran bütün vəzifələri uğurla icra etmişdir: “Təkcə rəqəmlərə baxanda, demək kifayətdir ki, 2019-cu il iqtisadi inkişaf baxımından, ölkəmiz üçün uğurlu olmuşdur. Dünya Bankı Azərbaycanı 20 ən islahatçı ölkə siyahısına salmışdır, bu, böyük nailiyyətdir. Bu, onu göstərir ki, ölkəmizdə aparılan köklü islahatlar aparıcı beynəlxalq qurumlar tərəfindən də təqdirlə qəbul edilir. Deyə bilərəm ki, bütövlükdə, 2019-cu il dərin islahatlar ili olmuşdur - həm siyasi, iqtisadi, sosial sahələrdə, həm də kadr və struktur islahatları sahələrində. Bu islahatlar inkişafımızın bundan sonra daha da uğurlu olacağına imkan verəcək, o cümlədən, iqtisadi artım daha da böyük rəqəmlərlə ölçüləcəkdir”.

Ölkə başçısı əldə olunan nailiyyətlərin bundan sonra da dayanaqlı olduğunu deyib: “Hesab edirəm ki, keçən il iqtisadi sahədə əldə edilmiş nəticələr qənaətbəxşdir. Beləliklə, ümumi daxili məhsul 2,2 faiz artmışdır, bu, yaxşı nəticədir, xüsusilə, nəzərə alsaq ki, qeyri-neft sektorunda bu artım 3,5 faizdir. Sənaye istehsalı 1,5 faiz artmışdır, ancaq qeyri-neft sektorunda sənaye istehsalı 14



faiz artmışdır. Bu da, son illər ərzində, sənaye sahəsində görülmüş işlərin təzahürüdür. Azərbaycanda sənaye istehsalı həm dövlət vəsaiti hesabına, həm də özəl sektorun fəaliyyəti nəticəsində artmışdır. Əminəm ki, bu artım bundan sonra da dayanıqlı olacaqdır”.

## “Bizim, əslində, xarici kreditlərə ehtiyacımız yoxdur, indi özümüz kreditoruq”

Onu da vurğulamaq yerinə düşər ki, bu gün hər kəsə bəllidir ki, Azərbaycan özünü təmin edən, milli köklərə əsaslanan, eyni zamanda, dünya birliyinin etibarlı və layiqli üzvü olan dövlətdir. Beynəlxalq münasibətlərin dəyişdiyi, qloballaşan dünyada yeni məsələlərin, yeni çağırışların ortaya çıxdığı bir zamanda, Azərbaycanda həyata keçirilən siyasi və iqtisadi islahatlar uğurlu nəticələr verir. Belə ki, son 16 ildə Azərbaycan dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. Təkcə bir fakta nəzər yetirək. Azərbaycan 16 il öncə, 1,8 milyard dollar valyuta ehtiyatına sahib idisə, bu gün həmin rəqəm 51 milyard dollara yüksəlib: “Valyuta ehtiyatlarımız isə 6,4 milyard dollar artmışdır və rekord həddə - 51 milyard dollara çatmışdır. Bildirməliyəm ki, adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan MDB məkanında birinci yerdədir. Xarici ticarət dövriyyəsinin müsbət saldosu isə 6 milyard dollar təşkil edir və bu, çox gözəl göstəricidir. Deyə bilərəm ki, dünya ölkələrinin mütləq əksəriyyətində xarici ticarət dövriyyəsində mənfi saldo müşahidə olunur, bizdə isə müsbət saldodur. Bu, sözsüz, həm manatın məzənnəsinin sabit vəziyyətdə saxlanmasına, həm də bütövlükdə, makroiqtisadi vəziyyətin sabit olmasına xidmət göstərəcəkdir”. Azərbaycan Prezidenti İlham Əliyevin bu islahatlarının uğurlu gedişini şərtləndirən əsas səbəb onların təməl prinsiplərinin düzgün müəyyənləşdirilərək hazırlanması və qlobal çağırışlardan lokal gerçəkliyədək bütün tələb-şərtlərə uyğunlaşdırılmasıdır. Dövlət başçısı görülən işləri belə dəyərləndiribdir: “Beləliklə, iqtisadi sahədə əldə edilmiş nəticələr və rəqəmlər, artıq bir daha təsdiqləyir ki, bizim siyasətimiz düşünülmüş və nəticəyə hesablanmış siyasətdir”.

## “Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır”

Prezident İlham Əliyev bildirib ki, Avropada, Asiyada, Latın Amerikasında, postsovet məkanında, bizim bölgəmizdə, Yaxın Şərqdə, dünyada gərginlik artır. Azərbaycan isə sabitlik məkanı kimi inkişaf edir: “Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan xalqının iradəsi Azərbaycanda sabitliyin əsas təminatçısıdır. Xalq tərəfindən bizə göstərilən dəstək, bizim siyasətimizə verilən yüksək qiymət həm bizi daha da ruhlandırır və eyni zamanda, ölkəmizdə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Sabitlik pozulanda ölkələrdə böhran, xaotik proseslər baş verir və ölkələr böyük zərər görürlər. Biz bunu 1990-cı illərin əvvəllərində öz tariximizdə görmüşük. Azərbaycanda sabitlik pozulmuşdu, ölkə böhran içində idi, bizim böyük itkilərimiz olmuşdur. Amma artıq 26 ildir ki, Azərbaycan sabitlik şəraitində yaşayır və bu illər ərzində, ölkəmiz çox böyük inkişaf yolu keçmişdir. Deyə bilərəm ki, ölkəmiz əsrə bərabər inkişaf yolu keçmişdir və bu gün Azərbaycan dünya miqyasında güclü ölkələr sırasındadır”.

Dövlət başçısı Azərbaycanın dünya müstəvisində çox etibarlı tərəfdaş kimi tanındığını və beynəlxalq gücünün ilbeil artdığını da bildirib: “Azərbaycan dünya müstəvisində çox etibarlı tərəfdaş kimi tanınır və bizim beynəlxalq gücümüz də ildən-ilə artır. İl ərzində ölkəmizə 40-dan çox dövlət və hökumət başçısı səfər etmişdir, həm ikitərəfli formatda, həm də beynəlxalq tədbirlərdə iştirak üçün. Eyni zamanda, bizim qonşu dövlətlərin dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərim olubdur və bu görüşlər çox önəmlidir. Çünki qonşularla münasibətlərin qurulması, hesab edirəm ki, hər bir ölkə üçün prioritet olmalıdır. Azərbaycanın öz qonşuları ilə çox möhkəm və qarşılıqlı maraqlar əsasında formalaşmış əlaqələri mövcuddur. Bu əlaqələr keçən il daha da möhkəmləndi. Eyni zamanda, keçən il Azərbaycana Avropa İttifaqı Şurasının prezidentinin səfəri Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri də əks etdirir. Bu səfər bu əlaqələrə böyük töhfə vermişdir. Bildiyiniz kimi, hazırda Avropa İttifaqı ilə biz yeni saziş üzərində işləyirik və ümid edirəm ki, bu işlər nəticə verəcəkdir”.

## Qısqanclıqla qarşılanan həqiqətlər

Göründüyü kimi, bütün çətinliklərə baxmayaraq, məhz ölkə Prezidentinin düşünülmüş siyasətinin nəticəsidir ki, Azərbaycan sürətlə inkişaf edə bilir. Belə ki, iqtisadi potensialın gücləndirilməsi, müasir sosial infrastrukturun yaradılması, minlərlə istehsal müəssisəsinin, nəhəng zavod və fabriklərin, yeni iş yerlərinin açılması, əmək haqlarının, pensiyaların və müavinətlərin ardıcıl şəkildə artırılması əhalinin sosial durumunun əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub. Amma buna baxmayaraq, bəzi daxili siyasi qruplar və xarici dairələr, onlara qulluq edən mətbuat əsassız, qərəzli şəkildə həyata keçirilən siyasəti ləkələməyə və onun əhəmiyyətini azaltmağa çalışır. Bu mənada, bir sıra müxalifət funksionerləri, mətbuatı Azərbaycanda əmək haqlarının, pensiyaların, təqaüdlərin artırılması ilə bağlı son sərəncamları öz maraqlarından irəli gələn siyasi manipulyasiya obyektinə çevirmək üçün müəyyən cəhdlər göstərsələr də, heç bir şeyə nail ola bilmirlər.

## Azərbaycan minimum əmək haqqı artımı reytinqində ilk beşlikdə

Bu faktın özü, bir daha sübut edir ki, heç bir böhtan, ara qızışdırmaq Azərbaycanın uğurlarına kölgə sala bilməz. Belə ki, “Picodi.com” internet-portalının analitikləri tərəfindən tərtib edilən reytinqə görə, minimum əmək haqqı artımına görə Azərbaycan 54 ölkə arasında ikinci yerdə qərarlaşıb. 2020-ci ildə nağd verilən pulun məbləği ötən ilə nisbətən 37,7 faiz artaraq, 140 dollar təşkil edib.

Beləliklə, bütün bunlar, o deməkdir ki, dövlət başçımız növbəti illərdə də Azərbaycan Prezidenti kimi Ümummilli Lider Heydər Əliyev tərəfindən başlanan, ölkəmizi böyük perspektivlərə doğru aparan uğurlu inkişaf strategiyasını davam etdirəcək və xalqımızın rifah halı daim yüksələcək.

**RƏFİQƏ KAMALQIZI**



# Əli Əhmədov: “Hər il Azərbaycanın əmək bazarına 100 mindən çox işçi qüvvəsi daxil olur”

***Yanvarın 16-da Birləşmiş Millətlər Təşkilatı (BMT) və Azərbaycan Respublikası arasında yeni əməkdaşlıq çərçivəsini formalaşdırmaq üçün ikigünlük seminar işə başlayıb. BMT-nin Azərbaycandakı nümayəndəliyinin təşkil etdiyi və Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının dəstəklədiyi tədbirin məqsədi 2021-2025-ci illəri əhatə edən BMT ilə Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsinin strateji prioritetlərini müəyyənləşdirməkdir.***





AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Baş Nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Azərbaycan hökumətinin BMT ilə əməkdaşlığa yüksək qiymət verdiyini bildirib, həmin əlaqələrin ölkəmiz üçün faydalı olduğunu deyib.

“Son 30 ildə yaradılan gənc dövlətlər içərisində ən uğurlu və sürətlə inkişaf edən dövlətlərdən biri də Azərbaycandır. Bu illər ərzində Azərbaycanın iqtisadiyyatı böyük inkişaf mərhələsi keçib. İqtisadiyyat dəfələrlə artıb, ölkəmizin siması köklü surətdə dəyişib, əhalinin həyat səviyyəsi və həyat keyfiyyətləri istiqamətində böyük layihələr həyata keçirilib. Bütün bunların nəticəsində Azərbaycan vətəndaşlarının həyatı, əhalinin yaşayış səviyyəsi ciddi şəkildə yaxşılaşıb. Bu gün Azərbaycan yüksək orta səviyyəli inkişaf etmiş ölkələr sırasına daxil olub.

Azərbaycanın BMT ilə əlaqələri müxtəlif sahələri əhatə edir. İndiki dövrdə BMT-nin dünya miqyasında həyata keçirdiyi qlobal layihələrdən biri 2030-cu ilə qədər dünyamızın transformasiyası ilə əlaqədardır. Azərbaycan bu layihəyə qoşulub. Hesab edirəm ki, 2030-cu ilə qədər dünyamızın transformasiyası layihəsinin həyata keçirilməsində də Azərbaycan öz töhfələrini verəcək. Ölkəmiz həmin layihə çərçivəsində ortaya qoyulmuş məqsədlərin və hədəflərin əldə olunması ilə əlaqədar təhlillər apardıqdan sonra özünün əsas prioritetlərini müəyyənləşdirib. Başlıca hədəfimiz ondan ibarətdir ki, Azərbaycanın milli inkişaf strategiyası BMT-nin müəyyənləşdirdiyi və 2030-cu ilə qədər dünyamızın transformasiyasını nəzərdə tutan proqramdakı strateji məqsədlərə və hədəflərə tamamilə uyğun gəlsin.

Azərbaycanın inkişafı bütün sahələrdə özünü göstərir, o cümlədən əhalinin sayı böyük templə artmaqdadır. Son 30 ildə Azərbaycan əhalisi 3 milyon nəfər artıb ki, bu da 40 faiz artım deməkdir. Hər il Azərbaycanın əmək bazarına 100 mindən çox işçi qüvvəsi daxil olur. Hazırda əhalinin 50 faizdən bir qədər çoxu şəhərlərdə yaşayır. Bu da qarşımıza kənd yerlərində məşğulluğun artırılması, həyat səviyyəsinin yüksəldilməsi ilə bağlı vəzifələr qoyur.



Qarşımızda duran ən mühüm vəzifələrdən biri də sosial sferanın inkişaf etdirilməsidir. Son illərdə insanların həyat səviyyəsinin və həyat keyfiyyətinin yaxşılaşdırılması istiqamətində çox böyük layihələr həyata keçirilib. Ötən il Prezident İlham Əliyevin təşəbbüsü ilə böyük sosial layihələr, paketlər həyata keçirilib və insanların həyat səviyyəsində əhəmiyyətli dəyişiklik əldə edilib. Lakin Azərbaycanın özündən asılı olmayan səbəblərdən həll etməli olduğu məsələlər də var. Ölkə ərazisinin 20 faizi işğal altındadır. Əhalinin 10 faizi, yəni təxminən 1 milyona yaxını məcburi köçkündür. Onların sosial rifahının yüksəldilməsi də dövlətin diqqət mərkəzindədir”, - deyə Baş Nazirin müavini vurğulayıb.

O, 5 illik proqramın ölkəmizdə həyat səviyyəsinin daha da yüksəldilməsinə səbəb olacağını bildirib. Əli Əhmədov strateji hədəflərə çatmaq üçün səylərin birləşdirilməsinin vacibliyini qeyd edib.

BMT-nin rezident əlaqələndiricisi Qulam İshaqzai “BMT-nin inkişaf sistemi islahatları çərçivəsində 2030-cu ilə baxışı” mövzusunda məruzə ilə çıxış edib. O, məruzəsində dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün milli maliyyə strategiyasının hazırlanmasının vacibliyini qeyd edib. Rezident əlaqələndirici növbəti 5 il ərzində görüləcək işlərin nəticələrinin Azərbaycanda əhalinin hər bir təbəqəsi arasında hiss ediləcəyinə ümidvar olduğunu bildirib.

“Azərbaycanın 2030-cu il və sonrakı dövrlə bağlı inkişaf strategiyası” mövzusunda məruzə ilə çıxış edən BMT ilə Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsinin İdarə Komitəsinin həmsədri, İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın BMT-nin qlobal təşəbbüslərində fəal iştirak etdiyini və




öz töhfəsini verdiyini diqqətə çatdırıb. Azərbaycanda həyat səviyyəsinin yüksəldilməsi və iqtisadi inkişafa nail olmaq üçün həyata keçirilən tədbirlərdən danışan İqtisadiyyat naziri yoxsulluğun 49 faizdən 4.9 faizə endirildiyini, ölkəmizin yoxsulluğa və aclığa qarşı mübarizəyə görə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xüsusi mükafatına layiq görüldüyünü deyib.

Nazir bildirib ki, 2016-cı ildə Prezident İlham Əliyevin imzaladığı müvafiq Fərmanla yaradılmış Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası Azərbaycan üçün prioritet hesab edilən 17 məqsəd, 88 hədəf, 119 göstərici seçib. Bu hədəflər ölkə üzrə hazırlanan dövlət proqramları, strategiyalar, milli fəaliyyət planlarına inteqrasiya edilib. Dayanıqlı İnkişaf Məqsədlərinin milli prioritetlərə uyğunluğunu müəyyən etmək üçün sürətli kompleks qiymətləndirmə aparılıb. Qiymətləndirmənin nəticəsinə görə, mövcud strateji sənədlərin həmin məqsədlərə uyğunluğu 70 faiz təşkil edib.

Sonra BMT ilə Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsinin planlama prosesi üzrə məsləhətçisi Peter Midlbrokun moderatorluğu ilə “BMT- Azərbaycan əməkdaşlığının 2030 gündəliyinə nail olmaqda əlavə etdiyi dəyərlər” mövzusunda panel müzakirə həyata keçirilib.

Müzakirədə Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlardan danışan Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev deyib: “İslahatların həyata keçirilməsi üçün üç hədəf müəyyənləşdirilib. Birinci, sosial müdafiənin maliyyə təminatının gücləndirilməsi əhalinin rifahının artırılmasına yönəlib. Hətta ötən il bu sahədə ölkə əhalisinin 42 faizinin gəlirlərinə və onların rifahına birbaşa təsir edən sosial zərf qəbul edilib. Onun maliyyə təminatı da dövlət büdcəsinin 12-13 faizinin əlavə olaraq sosial sahəyə yönəldilməsi sayəsində baş verdi. Minimum əməkhaqqı ölkədə 92, minimum pensiya 72, bütün müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb.

İkinci qrup hədəflər inzibati təcrübə sahəsində səmərəliyin artırılmasıdır və bu sahədə də qarşıya böyük tələblər qoyulub. Prezidentin müvafiq fərman və sərəncamlarına uyğun olaraq ötən il 19 növ müavinət və təqaüdün ödənilməsi, eləcə də pensiya təminatı avtomatlaşdırılıb. Aparılan islahatlar təkcə bu il 200 mindən çox müavinət və pensiya təminatını tam elektron qaydada və proaktiv şəkildə birbaşa əldə etmək imkanı yaradır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə DOST agentlikləri və “DOST” mərkəzlərinin istifadəyə verilməsinə başlanılıb. Ötən il ölkədə 2 “DOST” mərkəzi istifadəyə verilib. Təkcə 8 ayın nəticələrinə əsasən 63 mindən çox vətəndaş “bir pəncərə”dən 132 xidməti əldə etmək imkanı qazanıb. İndiyədək həmin xidmətlərdən istifadə edən 63 min vətəndaşın məmnunluq səviyyəsi 95, 2 faizdir və bu, bizim gözlədiyimizdən də çoxdur.

Hədəflərin üçüncü qrupuna gəldikdə isə bu daha çox orta və uzunmüddətli dövr üçün konseptual yanaşmanın müəyyən edilməsi ilə əlaqədardır”.

Sahil Babayev hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə BMT-nin ixtisaslaşmış qurumları arasında 14 layihənin icra olunduğunu da diqqətə çatdırıb.

Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Əliyev Azərbaycanda ekoloji məsələlərin diqqət mərkəzində saxlanıldığını deyib. O, bunun bariz nümunəsi kimi 2010-cu ilin “Ekologiya ili” elan olunduğunu, ötən ilin isə “Nəsimi ili” çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə bir gündə 650 min ağacın əkildiyini qeyd edib. Nazir müavini işğal edilmiş ərazilərdə erməni vandallarının təbiətimizə vurduğu ziyanlardan da bəhs edib.

İqlim dəyişmələri məsələlərinə toxunan F.Əliyev heç bir ölkənin ondan kənarda qalmadığını diqqətə çatdırıb.

Nazir müavini Azərbaycanda suyun qənaətlə istifadəsi, biomüxtəlifliyin mühafizəsi, torpaqların deqradasiyasının qarşısının alınması, meşə ərazilərinin artırılması, yoxsulluğun azaldılması, akvakulturanın inkişafı sahəsində tədbirlər görüldüyünü vurğulayıb.

Panel müzakirəsi zamanı, həmçinin İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə, Azərbaycan Mikromaliyyə Assosiasiyasının icraçı direktoru Jalə Hacıyeva çıxış edərək BMT-Azərbaycan inkişafının əldə etdiyi dəyərlər, milli inkişaf üçün lazımi ehtiyaclar, Dayanıqlı İnkişaf Məqsədləri üçün tərəfdaşlığın gücünü artırmaqla bağlı öz fikirlərini bölüşüb. Yanvarın 17-də seminara yekun vurulacaq.

# Gözəl və inkişaf edən diyarın adı Naxçıvandır

*Prezident İlham Əliyev: "Naxçıvanın uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir. Bizim müstəqilliyimizin möhkəmləndirilməsi deməkdir. Burada gedən işlər məni çox sevindirir"*



***Ölkəmizdə aparılan məqsədyönlü uğurlu siyasətin nəticəsi olaraq, respublikamız dünyanın sürətli inkişaf yolunda irəliləyən, özünəməxsus milli inkişaf modelini yaradan dövlətlərindən biri kimi tanınır. 2019-cu ilin əvvəlindən başlayan sosial-iqtisadi islahatlar, kadr sahəsində yeniliklər Azərbaycanın uzunmüddətli perspektivə və dinamik sosial-iqtisadi inkişafın davamlılığına yeni imkanlar yaradıb. Bu uğurlar və nailiyyətlər prosesində qədim və əsrarəngiz diyarımız olan Naxçıvan Muxtar Respublikası xüsusi rolu ilə seçilir. Muxtar respublikada quruculuq-abadlıq işləri, yeni iş yerlərinin yaradılması, əhalinin sosial-iqtisadi durumunun yaxşılaşdırılması istiqamətində genişmiqyaslı işlər görülür və islahatlar həyata keçirilir. Əldə olunun nailiyyətlər isə, heç də səbəbsiz deyil. Ulu Öndərimiz Heydər Əliyevin mükəmməl idarəçilik fenomeni, düşünülmüş sosial-iqtisadi siyasəti, bu gün də muxtar respuvlikada davam etdirilməkdədir.***

Bu, inkaredilməz faktdır ki, Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına, o cümlədən, yağı düşmən olan Ermənistanla üz-üzə olan Naxçıvanın tənəzzüldən tərəqqiyə və inkişafa çıxmasına gətirib çıxardı. Həm də, qətiyyətlə onu qeyd etmək olar ki, əgər Ulu Öndər Heydər Əliyev 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada Ali Məclisin Sədri seçilməsinə razılıq verib, idarəçiliyi öz əlinə almasa idi bu gün işğal olunmuş ərazilərimizin siyahısında Naxçıvan da olardı. Eyni zamanda, Dahi Öndərimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri olması və Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçilməsi Ulu Öndərimizin o zaman çətin və ağır durumda olan Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak etməsinə imkanlar yaratmış oldu. Ulu Öndərimiz Heydər Əliyev tarixi çıxışlarının birində demişdir: "Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Xalqın bu əhval-ruhiyyəsini, tələblərini nəzərə alaraq, bütün məsələləri götür-qoy etdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm". Tarixi faktlar və mövcud reallıqlar təsdiq edir ki, Ulu Öndərimiz Heydər Əliyev üzərinə götürdüyü çətin problemlərin layincə həllinə nail ola bildi.

## Ulu Öndər özünə Naxçıvan boyda abidə ucaltdı

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Dahi Öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü barədə deyib: "Tale Ulu Öndəri bu regiona göndərməklə Naxçıvanı işğal olunmaq, əhalisini isə qaçqın ömrü yaşamaq təhlükəsindən hifz etdi. Azərbaycanın bu qədim torpağını xilas edən Ulu Öndər özünə Naxçıvan boyda abidə ucaltdı. Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı".

Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə də, mütəmadi olaraq, Naxçıvana səfərlər edir, görülən işlərlə, orada müşahidə olunan böyük inkişafla yerində tanış olurdu. Ulu Öndərin bu siyasəti Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Bu gün Naxçıvandakı yüksək inkişaf, görülən abadlıq və quruculuq işləri, məhz bu siyasətin nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tarixi çıxışlarının birində Naxçıvanda gedən genişmiqyaslı quruculuq-abadlıq işlərini, əhalinin sosial rifah halının yaxşılaşmasını, həm də, Azərbaycanın inkişafı olduğunu bildirib: "Naxçıvanın uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir. Bizim müstəqilliyimizin möhkəmləndirilməsi deməkdir. Burada gedən işlər məni çox sevindirir. Mən əminəm ki, bu gözəl ənənələr gələcək illərdə də davam etdiriləcək və Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə, nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır".

## Muxtar respublikada 2019-cu ilin yanvar-avqust aylarında 1 milyard 803 milyon 670 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur

Qarşıya qoyulan bütün vəzifələrin uğurla icra olunması, çoxşaxəli iqtisadiyyatın formalaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi, mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması Naxçıvan Muxtar Respublikasının sürətlə inkişafını reallığa çevirib. Naxçıvan Muxtar Respublikada iqtisadi islahatlar ardıcıl həyata keçirilir, torpaq islahatı başa çatdırılıb, azad sahibkarlığın, xüsusi mülkiyyətin və kiçik biznesin inkişafı üçün geniş imkanlar yaradılıb. 2019-cu ilin iqtisadi göstəricilərinə əsasən, demək olar ki, iqtisadi inkişafın əsas göstəricisi sayılan ümumi daxili məhsulun həcmi 2004-cü illə müqayisədə 12 dəfə artaraq, 2 milyard 773 milyon 20 min manatdan çox olmuşdur. Ümumi daxili məhsulda maddi istehsal sektorunun xüsusi çəkisinin 65 faizə yaxın olması isə sabit iqtisadi artımın daha bir göstəricisidir. Muxtar respublikada 2019-cu ilin yanvar-avqust aylarında 1 milyard 803 milyon 670 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur. Bu, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artaraq, 3945 manat olmuşdur. Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 742 milyon 932 min 800 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur.

Vəsait qoyuluşları çərçivəsində 2019-cu ilin yanvar-avqust aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 654 milyon 443 min 600 manat vəsait yönəldilmişdir. Bu da, bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 631 milyon 634 min 500 manatı və ya 96,5 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür. Bəhs olunan dövrdə 309 milyon 144 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz çoxdur. Bu dövr ərzində, diri çəkidə ət istehsalı 14518,9 ton, süd istehsalı 68143,1 ton olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,9 faiz, süd istehsalı isə 1,5 faiz artmışdır. 2019-cu ilin yanvar-avqust aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 35 milyon 522 min manat olmuşdur ki, bu da, 2018-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 3,2 faiz çoxdur. Bu dövr ərzində, mobil rabitə xidmətlərinin dəyəri 28 milyon 898 min 100 manat təşkil etmiş və bir il öncəyə nisbətdə, 2,1 faiz artmışdır. Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları, davamlı olaraq yaxşılaşdırılmış, 2019-cu ilin yanvar-avqust aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 77 milyon 641 min 400 manat məbləğində kreditlər verilmişdir ki, bu da, bir il öncəki göstəricidən 2,2 dəfə çoxdur. Verilmiş kreditlərin 9 milyon 781 min 800 manatı və yaxud 12,6 faizi qısamüddətli, 67 milyon 859 min 600 manatı və yaxud 87,4 faizi uzunmüddətli kreditlər olmuşdur. Sahibkarlıq fəaliyyətinin, davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində, muxtar respublikada 383 növdə məhsul istehsal olunur. Bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir. Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir. 1 sentyabr 2019-cu il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 82781-ə çatmışdır ki, bunun da, 73167-si və ya 88,4 faizi aktiv hesablardır. 2019-cu ilin yanvar-avqust aylarında açılmış 18163 bank hesabının 17995-i aktiv hesablar olmuşdur. Muxtar respublikada quraşdırılmış POST-terminalların sayı 1 sentyabr 2019-cu il tarixə 1276-ya çatmışdır. Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2019-cu ilin yanvar-avqust aylarında 325 milyon 495 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq, 285 milyon 764 min 900 ABŞ dolları təşkil etmiş, 246 milyon 34 min 800 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır. 2019-cu ilin yanvar-iyul aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 454,5 manat təşkil etmişdir ki, bu da, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,7 faiz çoxdur. Bu günlər Ordubad rayonunun Vənənd kəndində yeni sosial obyektlərin istifadəyə verilməsi mərasimdə iştirak edərkən, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Vasif Talıbov bildirib ki, bu gün ölkəmizin ümumi inkişafının tərkib hissəsi kimi muxtar respublikamızda da quruculuq işləri aparılır, kəndlər abadlaşır, yollar çəkilir, yeni məktəblər tikilir, su-kanalizasiya sistemləri qurulur. İnsanların rahat yaşaması, təsərrüfatların inkişafı, əhalinin məskunlaşması üçün dövlət tərəfindən lazımi tədbirlər görülür: "Həyata keçirilən tədbirlər Vənənd kəndinin timsalında aydın görünür. Bu gün Azərbaycanda əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan sabitlik, inkişaf və dövlət-xalq birliyi mövcuddur. Ölkə Prezidenti tərəfindən həyata keçirilən tədbirlərin nəticəsidir ki, sabitlik və inkişaf Azərbaycanın həyat tərzinə çevrilib. Muxtar respublikada da inkişaf təmin olunmuşdur".

## Naxçıvan abadlaşır, gözəlləşir və əhalinin yaşayış durumu daha da yaxşılaşır

Haqlı olaraq tarixçi-alimlər 5 min illik tarixə malik Naxçıvanı sivilizasiyanın beşiyi adlandırırlar. Bu diyarda qədim türbə və tikililər, daş kitabələr və abidələr mövcuddur ki, bu da, özündə sivilizasiyanın ilkin mərhələlərini əks etdirir. Həm yazılı mənbələr, həm də burada aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət nümunələri, bu gün də qorunub-saxlanılan neçə-neçə abidə, bir daha sübut edir ki, bu diyarda şəhər mədəniyyətinin tarixi 5 min ilə yaxındır. Naxçıvanda dünya memarlıq məktəbinin şah əsəri olan qiymətli tarixi tikililər qorunaraq və əsaslı surətdə bərpa olunaraq, gələcək nəsillərə ötürülür. Məhz Naxçıvanın bugünkü və tarixi uğurlarına əsaslanan Prezident İlham Əliyev bildirib ki, gözəl təbiəti, iqlimi, havası, mənzərəsi, binaları və ən önəmlisi, gözəl insanları olan gözəl məkanın adı Naxçıvandır. Prezidenti İlham Əliyevin Naxçıvana səfəri zamanı əhali ilə görüşündə bildirib ki, Naxçıvan şəhəri, bütün şəhərlər abadlaşır, gözəlləşir, çox böyük quruculuq və yaşıllaşdırma işləri aparılır: "Son illər ərzində, muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır". Ölkə Prezidenti uğurların qazanılmasında muxtar respublika rəhbərliyinin fəaliyyətini xüsusi vurğulamışdır: "Mən Naxçıvanın rəhbəri Vasif Talıbovun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Onun fəaliyyəti nəticəsində, burada bu işlər görülür və o da sizə arxalanır. Öz fəaliyyəti ilə Ulu Öndər Heydər Əliyevin tutduğu yolu Naxçıvanda davam etdirir. Bu, çox böyük nailiyyətdir". Heç də təsadüfi deyil ki, bu günlərdə Naxçıvan Muxtar respublikasının Ali Məclisinin sədri Vasif Talıbov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə dövlət quruculuğu işlərində xidmətlərinə görə, "Şərəf" ordeninə layiq görülüb. Şübhəsiz ki, Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbov 2020-ci ildə də bu şərəfli yolu böyük uğurla və əzmlə davam etdirəcək.

Azərbaycanın hər bir bölgəsi olduğu kimi, Naxçıvan Muxtar Respublikası da bundan sonra da inkişaf dinamikasını davam etdirəcək. Çünki Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət və Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyevin dönməz və dəyişməz, xalqa, dövlətə xeyirli, gərəkli siyasəti bunu özündə ehtiva edir.

***Eldar İbrahimov,***
***Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, professor***

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşlarla görüşüblər



*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, yanvarın 16-da Siyəzən, Yardımlı, Ağsu, Ağcabədi və Daşkəsən rayonlarının sakinləri ilə görüşüblər. SİA xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerində həll edilib. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.*

Görüşlərdə qeyd olunub ki, müxtəlif ölkələrdə gərginlik, qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması müşahidə olunsa da, Azərbaycan sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalq-iqtidar birliyi, həyata keçirilən siyasətə verilən yüksək qiymət həm iqtidarı daha da ruhlandırır, həm də ölkədə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Artıq 26 ildir ki, Azərbaycan sabitlik şəraitində yaşayır və bu illər ərzində ölkə çox böyük inkişaf yolu keçib.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlətimizin başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

2019-cu il həm siyasi, iqtisadi, sosial sahələrdə, həm də kadr və struktur islahatları sahələrində dərin islahatlar ili kimi yadda qaldı. Bu islahatlar inkişafımızın bundan sonra daha da uğurlu olacağına imkan verir. 2019-cu ildə ümumi daxili məhsul 2,2 faiz artıb. Qeyri-neft sektorunda bu artım 3,5 faiz təşkil edib. Sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz yüksəlib. Kənd təsərrüfatı 7 faiz artıb, bitkiçilikdə bu artım 10 faizdən çox olub. İnflyasiya cəmi 2,6 faiz, əhalinin pul gəlirləri isə 7,4 faiz olub. Qeyri-neft ixracı 14 faiz artıb, valyuta ehtiyatları isə 6,4 milyard dollar çoxalaraq 51 milyard dollara çatıb. Adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan MDB məkanında birinci yerdədir. Xarici ticarət dövriyyəsinin müsbət saldosu isə 6 milyard dollar təşkil edir. İqtisadi sahədə əldə edilmiş nəticələr və rəqəmlər artıq bir daha təsdiqləyir ki, bizim siyasətimiz düşünülmüş və nəticəyə hesablanmış siyasətdir.

Bildirilib ki, 2019-cu ildə Azərbaycanda ən böyük sosial paket reallaşdırıldı. Aparılmış islahatlar çox geniş sosial paketi həyata keçirməyə imkan yaratdı. Həm müasir Azərbaycanın tarixində, həm də MDB məkanında bu dərəcədə böyük sosial paket bu günə qədər reallaşmamışdır. Azərbaycan sovet vaxtından qalmış əmanətlərin qaytarılmasında da vətəndaşlar üçün ən məqbul prinsip tətbiq etdi və bu sahədə də MDB məkanında birinci oldu. 2019-cu ildə həyata keçirilən sosial paket 4,2 milyon insanı əhatə etdi və vətəndaşların maddi vəziyyəti yaxşılaşdı. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırıldı. Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması prioritet məsələ olaraq qalır. Sosial infrastrukturla bağlı böyük işlər görülüb, 60 tibb müəssisəsi, 84 məktəb tikilib və təmir edilib. Keçən il plandan əlavə 900-dən çox şəhid ailəsinə mənzil təqdim edilib. Şəhid ailələri və Qarabağ əlilləri üçün bu il daha çox ev tikiləcək. Belə ki, bu kateqoriyadan olan şəxslərə 1500 mənzil verilməsi nəzərdə tutulur. Ünvanlı sosial yardımla bağlı 70 faiz artım baş verib, bu proqram 72 min ailəni əhatə edir. Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## Avropa Xəbər Agentlikləri Alyansı Anadolu Agentliyinin jurnalistlərinə qarşı yolverilməz hərəkəti pisləyən bəyanat yayıb

Avropa Xəbər Agentlikləri Alyansı (EANA) Misir polisinin Anadolu Agentliyinin Qahirədəki ofisində axtarış aparması və jurnalistləri həbs etməsi ilə bağlı bəyanat yayıb.




AZƏRTAC-ın da üzv olduğu EANA Misir polisinin bu hərəkətini kəskin şəkildə pisləyib, Anadolu Agentliyinin və onun jurnalistlərinin yanında olduğunu bildirib.

Demokratiyanın fundamental dəyərlərinə hər zaman sadiq qaldığını bəyan edən təşkilat söz və mətbuat azadlığının demokratik cəmiyyətin ayrılmaz tərkib hissəsi olduğunu vurğulayıb. EANA bu dəyərlərə qarşı çıxmağın yolverilməz olduğunu bildirib, Anadolu Agentliyinin jurnalistlərinin dərhal azadlığa buraxılmasını və dünya ictimaiyyətinin onların hansı əsasla həbs edilməsi ilə bağlı məlumatlandırılmasını tələb edib.

## ATƏT uzunmüddətli müşahidə missiyasının siyahısını açıqlayıb

Office for Democratic Institutions and Human Rights

ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun rəsmi internet səhifəsində fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkilərində seçki prosesini izləyəcək uzunmüddətli müşahidə missiyasının tərkibi açıqlanıb. Secki-2020.az saytında yer alan məlumata görə, 26 nəfərin yer aldığı siyahıda Rusiya, Türkiyə, Birləşmiş Krallıq, Fransa, Almaniya, İsveç, İsveçrə, Albaniya, Çexiya, Danimarka, İrlandiya, İtaliya, Niderland və Norveçdən nümayəndələr var. Xatırladaq ki, ATƏT-in əsas müşahidə missiyası 12 nəfərdən ibarətdir. Seçki günü daha 350 qısamüddətli müşahidəçinin səsvermənin gedişatını izləyəcəyi bildirilir.

## Parlament seçkilərini izləmək üçün Rusiyadan böyük nümayəndə heyəti gələcək



Fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkilərini müşahidə etmək üçün Rusiyadan böyük nümayəndə heyəti ölkəmizə səfər edəcək. Secki-2020.az saytında yer alan məlumatda deyilir ki, bu barədə Rusiya Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin sədri Leonid Slutski məlumat verib. O bildirib ki, nümayəndə heyətinə Rusiya Federasiya Şurasının üzvləri və Dövlət Dumasının deputatları daxildir. "Bundan başqa, Rusiya daxil olduğu bir sıra beynəlxalq strukturların, o cümlədən Avropa Şurası Parlament Assambleyasının və digər təşkilatların tərkibində də seçkiləri müşahidə edəcək. Mən dəfələrlə Azərbaycanda həm prezident, həm də Milli Məclisə keçirilən seçkiləri müşahidə etmişəm. Əminəm ki, bu seçkilər də ədalətli keçiriləcək", - deyə Slutski vurğulayıb.



## Azərbaycan iqtisadi göstəricilərinə görə "US News and World Report" jurnalının reytinqində 61-cidir

ABŞ-ın "US News and World Report" jurnalının tərtib etdiyi reytinqdə Azərbaycan iqtisadi göstəricilərinə görə 61-ci pillədə qərarlaşıb. Ölkəmiz əvvəlki reytinqlə müqayisədə mövqeyini 9 pillə yaxşılaşdırıb. AZƏRTAC "US News and World Report"a istinadla xəbər verir ki, reytinqin tərtibatçıları siyasi, iqtisadi, sosial, mədəniyyət, turizm və digər sahələr olmaqla 20 parametr üzrə təhlillər aparıblar.

Azərbaycan "Biznesə başlamaq" reytinqində 5 pillə irəliləyərək 57-ci, "Sahibkarlığın inkişaf səviyyəsi" üzrə siyahıda isə 11 pillə yüksələrək 64-cü yerdə qərarlaşıb. Reytinq "US News & World Report", "BAV Consulting" konsaltinq şirkəti və Pensilvaniya Universiteti tərəfindən tərtib olunub. Xatırladaq ki, 2016-cı ildəki reytinqdə Azərbaycan 60 ölkə arasında 53-cü, 2017-ci ildə 80 ölkə arasında 69-cu, 2018-ci ildə 64-cü, ötən il isə 70-ci yeri tutub.

## Mətyu Brayzə: "Əminəm ki, parlament seçkilərindən sonra Azərbaycan daha da güclənəcək"



Əminəm ki, parlament seçkilərindən sonra Azərbaycan daha da güclənəcək. Bu sözləri secki-2020.az saytına açıqlamasında Atlantik Şuranın siyasi şərhçisi, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Mətyu Brayzə deyib.

O bildirib ki, islahatlar prosesinə töhfə vermək, yeni ideyalar gətirmək məqsədilə parlamentin buraxılmasına dair qəbul edilən qərar təqdirəlayiqdir. "Bu, çox stimulverici prosesdir və nümunəvi məqamdır. Beynəlxalq ictimaiyyətin də diqqəti Azərbaycandakı seçkilərə yönələcək. Düşünürəm ki, Azərbaycanda aparılan islahatlar ölkənin hərtərəfli inkişafına yeni təkan verəcək", - deyə Mətyu Brayzə bildirib.

## Ukrayna Analitika Mərkəzinin rəhbəri: Azərbaycan cəmiyyətində parlament seçkilərinə maraq yüksəkdir



Fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkiləri ölkədə demokratik təsisatların daha da inkişafında yeni mərhələ olacaq. Bu fikri AZƏRTAC-a məxsusi açıqlamasında Ukrayna Analitika Mərkəzinin rəhbəri, ekspert Aleksandr Oxrimenko söyləyib. Onun sözlərinə görə, qeydə alınan namizədlərin çoxluğu, o cümlədən müxalifəti təmsil edən namizədlərin kifayət qədər olması cəmiyyətdə parlament seçkilərinə marağın yüksək olduğunun göstəricisidir. Eyni zamanda, Azərbaycanda demokratik və şəffaf seçki mühitinin yaradıldığının sübutudur. "İstər müxalifət, istər iqtidar, istərsə də bitərəf namizədlər olsun, onlar Azərbaycanda yaradılan demokratik seçki mühitindən bəhrələnərək mübarizə aparmalıdırlar", - deyə A.Oxrimenko əlavə edib.

# Bakıda “Seçkinin mediada işıqlandırılması” mövzusunda informasiya sessiyası keçirilib




***Yanvarın 16-da Avropa Şurası Mərkəzi Seçki Komissiyası ilə birlikdə Bakıda “Seçkinin mediada işıqlandırılması” mövzusunda informasiya sessiyası təşkil edib. AZƏRTAC xəbər verir ki, tədbir Avropa Şurasının “Azərbaycan mediasında gender bərabərliyi və digər etik standartların təşviqi” layihəsi çərçivəsində keçirilib. Əsas məqsəd fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkiləri öncəsi jurnalistlərin gender bərabərliyinə də xüsusi diqqət yetirərək seçkinin mediada işıqlandırılması sahəsində Avropa Şurası standartlarına dair məlumatlılığının artırılması olub. Tədbirdə 60-a yaxın media nümayəndəsi, eləcə də dövlət qurumlarının və diplomatik missiyaların nümayəndələri, beynəlxalq və yerli ekspertlər iştirak ediblər.***



Sessiyada çıxış edən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib ki, əvvəlki parlament seçkiləri ilə müqayisədə fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar indiyədək rekord sayda deputatlığa namizəd qeydə alınıb. Yanvarın 15-nə olan məlumata görə, 1534 nəfərin deputatlığa namizədliyi qeydə alınıb.

MSK sədri qeyd edib ki, seçki prosesində mətbuat fəal iştirak edir. Bu da Azərbaycan dövlətinin şəffaf, demokratik seçkilərin keçirilməsi üçün ortaya qoyduğu siyasi iradənin ən bariz nümunələrindən biridir. Seçkilər mətbuat üçün açıq olmalıdır, KİV bu prosesdə önəmli rol oynamalıdır. Çünki istənilən ölkədə əhəmiyyətli tədbirin ictimaiyyətə çatdırılmasında ən önəmli rol mətbuatın üzərinə düşür. MSK da mətbuatla birgə işləməyə hər zaman xüsusi diqqət göstərir. Çalışmışıq ki, yerli mətbuatla yanaşı, beynəlxalq KİV nümayəndələri də bizim tədbirlərin işıqlandırılmasında fəal iştirak etsinlər.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova bildirib ki, 2019-cu il Azərbaycanda köklü islahatlar ili kimi yadda qalacaq. O, ölkəmizdə Prezident İlham Əliyev tərəfindən mütəmadi olaraq islahatların həyata keçirildiyini deyib. Qeyd edib ki, son islahatlar kəmiyyət və keyfiyyət baxımından əvvəlki illərdən xeyli fərqlənir. İslahatlar o qədər genişmiqyaslıdır ki, cəmiyyətin bütün institutlarına öz təsirini göstərəcək.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, fevralın 9-da keçiriləcək parlament seçkiləri daha çevik, peşəkar deputat korpusunun formalaşmasına yönəlib. Parlament seçkiləri taleyüklü proses olduğu üçün bütün siyasi partiyalar, vətəndaş cəmiyyəti fəallaşır və media da bunun tərkib hissəsidir.

Seçkiqabağı təşviqat aparmaq üçün 40-a yaxın KİV-in qeydiyyatdan keçdiyini diqqətə çatdıran Səadət Yusifova seçkilər dövründə medianın üzərinə böyük yük düşdüyünü bildirib. O əlavə edib ki, media nümayəndələri prosesi obyektiv işıqlandırmalı və bütün namizədlər üçün bərabər şərait yaratmalıdır. “İnanırıq ki, bu parlament seçkiləri Azərbaycanda seçki təcrübəsinin və media ənənələrinin inkişafına öz töhfəsi ilə yadda qalacaq”, - deyə Prezident Administrasiyasının rəsmisi qeyd edib.






Avropa Şurasının Bakıdakı ofisinin rəhbəri Zoltan Hernyes bildirib ki, gender bərabərliyi həmişə müzakirə mövzusu olub. Gender bərabərliyinin təmin olunması mühüm əhəmiyyət kəsb edir.

Avropa Şurası seçkilərin işıqlandırılması ilə bağlı üzv ölkələrə tövsiyələr verib. Bu tövsiyələr əsasən medianın rolu ilə bağlıdır. İstər seçkilərdən əvvəl, istər seçkilər zamanı, istərsə də seçkilərdən sonra media bu prosesdə fəal iştirak etməlidir. “Seçkilər dövründə bizimlə əməkdaşlığa görə Azərbaycan tərəfinə, o cümlədən Prezident Administrasiyasına, Mərkəzi Seçki Komissiyasına, Mətbuat Şurasına və digər qurumlara təşəkkür edirik”, - deyə o əlavə edib.

Seçki dövründə mühüm məsələlərdən birinin də gender bərabərliyi olduğunu vurğulayan Zoltan Hernyes bildirib ki, gender bərabərliyi həmişə müzakirə mövzusu olub. Gender bərabərliyinin təmin olunması mühüm əhəmiyyət kəsb edir.

Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmov deyib ki, seçki prosesində medianın rolu qanunvericiliklə tənzimlənir. O, seçkiqabağı təşviqat zamanı televiziya və radio kanallarının əməl etməli olduğu məsələlərdən danışıb. Qeyd edib ki, Azərbaycanda özəl televiziya və radio kanalları təşviqatda iştirak edə bilməz. İctimai Televiziya seçkiqabağı təşviqatı ödənişli və ödənişsiz yolla həyata keçirir. Ödənişli efir vaxtı pulsuz efir vaxtından iki dəfə çox olmalıdır. Bəzən qiymətlərin yüksək olduğu iddia edilir. İctimai Televiziya tərəfindən müəyyən edilən ödənişli efir vaxtının bir saniyəsinin minimum 22 manat, maksimum 65 manat olması normal qiymətdir və mövcud reklam şərtlərinə uyğun hesablanıb.

Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib ki, Şura səsvermə günü öz fəaliyyətini bir neçə istiqamətdə quracaq. Qurumun “qaynar xətt”i fəaliyyət göstərəcək. “Qaynar xətt”ə daxil olan məlumatlar əvvəlcə Mərkəzi Seçki Komissiyasına ötürüləcək. Əvvəlki seçkilərdə “qaynar xətt”ə daxil olan problemlər həllini tapıb, bu seçkilərdə də həllini tapacağına inanırıq. Mətbuat Şurasının üzvləri bölgələrdə də seçkinin monitorinqində iştirak edəcəklər.

Sonra Mərkəzi Seçki Komissiyasının üzvü Qabil Orucov “Seçkinin mediada işıqlandırılması: Azərbaycan qanunvericiliyi və təcrübəsi” mövzusunda məruzə ilə çıxış edib. Tədbir çərçivəsində “Seçkinin mediada işıqlandırılmasına dair Avropa Şurası standartları”, “Seçkinin mediada işıqlandırılmasına dair Azərbaycan qanunvericiliyi və təcrübəsi” və “Seçkinin mediada işıqlandırılması gender bərabərliyi kontekstində” mövzularında çıxışlar olub. İnformasiya sessiyası müzakirələrlə davam edib.

***Azərbaycanın mühəndis-geoloqu, geologiya-mineralogiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü Xoşbəxt Yusifzadə bu və ya digər elmi dərəcələrə elmi fəaliyyəti və ən əsası isə əməyi ilə nail olub. Ömür yolu maraqlı və yaddaqalan hadisələrlə zəngin olsa da, arxada qoyduğu onilliklərdə bir insan ömrünün fədakar əməyi və keşməkeşli həyat yolu da görünür.***





# Azərbaycanın neft-qaz sənayesinin canlı rəmzi

Xoşbəxt Yusifzadə. 1930-cu il yanvarın 14-də Bakının Pirşağı kəndində anadan olan Xoşbəxt Yusifzadə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur. İnstitutu 1952-ci ildə "Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" üzrə bitirərək, "dağ mühəndisi-geoloq" ixtisasına yiyələnmişdir. Əmək fəaliyyətinə elə həmin il SSRİ Neft Sənayesi Nazirliyinin Bakıdakı "Dövlətxüsusineftlayihə" kontorunda başlamış, lakin az sonra o vaxt təzə təşkil olunmuş "Dənizneft" Birliyində işə qəbul edilmiş, burada böyük mühəndis və bölmə rəisi vəzifələrində çalışmışdır. Daha sonrakı illərdə müxtəlif vəzifələrdə çalışan Xoşbəxt Yusifzadə ömrünü sevib-seçdiyi peşəyə bağlayıb. 1992-1994-cü illərdə "Azərineft" Dövlət Konserninin birinci vitse-prezidenti, ARDNŞ prezidentinin müşaviri, 1994-2004-cü illərdə ARDNŞ-nin geologiya, geofizika və yataqların işlənməsi üzrə vitse-prezidenti vəzifələrində çalışıb. 2004-cü ildən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin geologiya, geofizika və yataqların işlənməsi üzrə birinci vitse-prezidentidir.

Onun, bilavasitə iştirakı və rəhbərliyi ilə Xəzər dənizi hövzəsinin Azərbaycan, Türkmənistan və Rusiya sektorlarında 20-dən artıq neft və qaz yatağı, o cümlədən, dünyada məşhur olan "Azəri", "Çıraq" və "Günəşli" yataqları kəşf edilmiş və istismara daxil edilmişdir. Xarici şirkətlərlə birgə aparılmış, demək olar ki, bütün işlərdə, o cümlədən, "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsində, "Əşrəfi", "Qarabağ", nəhəng "Şahdəniz" kimi yataqların, eləcə də, 2010-cu ildə ARDNŞ-nin açdığı "Ümid" yatağının kəşf edilməsində əvəzedilməz rolu olmuşdur. Təbii ki, X.Yusifzadənin elmi araşdırmaları neft və qaz-kondensat yataqlarının kəşfində və işlənməsində qarşıya çıxan problemlərin həll edilməsi işinə böyük töhfə olmuşdur. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə aparılan elmi-tədqiqat işlərinin nəticələri bu məşhur alimin və görkəmli istehsalat təşkilatçısının nəşr olunmuş 188 elmi əsərində, o cümlədən, 12 monoqrafiyasında və 8 ixtirasında öz əksini tapmışdır. X.Yusifzadənin rəhbərliyi və bilavasitə iştirakı ilə bir sıra yeni üsulların və mütərəqqi metodların istehsalatda tətbiqi nəticəsində, Xəzər dənizində 20 neft və qaz-kondensat yatağı kəşf edilmişdir.






## "AZƏRBAYCANIN İNKİŞAFINI "AZƏRİ-ÇIRAQ-GÜNƏŞLİ"SİZ TƏSƏVVÜR ETMƏK MÜMKÜN DEYİL"

Belə bir ömür yaşamış X.Yusifzadənin 90 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması təsadüfi deyildi. Yubiley mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev: "Siz Azərbaycanın neft-qaz sənayesinin canlı rəmzisiniz" deyib: "Siz həm Sovet dövründə, həm də müstəqillik dövründə Azərbaycan xalqı naminə, Azərbaycanın inkişafı yolunda böyük işlər görmüsünüz, böyük töhfələr vermisiniz. Həm Sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın neft-qaz sənayesinin inkişafında sizin böyük rolunuz var. Siz 20-dən çox neft-qaz yatağının kəşf edilməsində, bilavasitə iştirak etmisiniz, bir çox hallarda kəşfiyyat işlərinə rəhbərlik etmisiniz. O yataqlar arasında "Azəri", "Çıraq" və "Günəşli" xüsusi yer tutur. Bu yatağın Sovet dövründə aşkarlanması böyük hadisə idi. Çünki Xəzərdə ən böyük neft yatağıdır. Ancaq "Azəri-Çıraq-Günəşli"nin müstəqillik dövründə işlənilməsi tarixi hadisədir. Çünki bugünkü Azərbaycanın inkişafını "Azəri-Çıraq-Günəşli"siz təsəvvür etmək mümkün deyil. Bu yatağın işlənilməsi və yataqdan hasil olunan neft bugünkü Azərbaycanın inkişafını təmin edir, iqtisadi müstəqilliyini şərtləndirir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyimizi möhkəmləndirir. Beləliklə, "Azəri-Çıraq-Günəşli" yatağının kəşf edilməsi və işlənilməsi, doğrudan da, tarixi hadisədir".

## "AZƏRBAYCAN O ÖLKƏLƏRDƏNDİR Kİ, NEFT-QAZ YATAQLARI ÖLKƏMİZƏ TƏRƏQQİ, XOŞBƏXTLİK VƏ İNKİŞAF GƏTİRDİ"

Dövlət başçısı bildirib ki, Azərbaycanın bugünkü uğurları haqqında danışanda, neft-qaz sənayesində əldə olunmuş nailiyyətləri, neftçilərimizin əməyini xüsusi qeyd etməliyik: "Neftçilərin qəhrəmanlığı və fədakarlığı sayəsində bu gün müstəqil Azərbaycan uğurla inkişaf edir. Neftdən əldə olunan gəlirləri ədalətli şəkildə idarə etmək, onları insanlara çatdırmaq, ölkə qarşısında duran əsas vəzifələrə yönəltmək, əlbəttə ki, siyasi rəhbərliyin böyük zəhməti hesabına və düşünülmüş siyasət nəticəsində mümkün olmuşdur. Azərbaycan o ölkələrdəndir ki, neft-qaz yataqları ölkəmizə tərəqqi, xoşbəxtlik və inkişaf gətirdi. Neftlə zəngin olan bir çox ölkələrdə, əksinə, neft xeyir yox, ziyan, problemlər gətirir, qanlı toqquşmalar baş verir. Biz tarixdən yaxşı bilirik ki, neft uğrunda mübarizə əksər hallarda çox böyük çətinliklərə, faciələrə gətirir".

Dövlət başçısı ölkəmizə çoxlu investisiyaların qoyulduğunu və bu gün Azərbaycanın dünya miqyasında, Avrasiyada qaz ixrac edən ölkəyə çevrildiyini diqqət çatdırıb: "İndi təsəvvür edin, əgər "Şahdəniz" kontraktı 1996-cı ildə imzalanmasaydı, nə Bakı-Tbilisi-Ərzurum, nə TANAP, nə də "Cənub Qaz Dəhlizi" olacaqdı. Beləliklə, Azərbaycanın qaz təminatı nə vəziyyətdə olacaqdı? Əgər "Şahdəniz" qazı olmasaydı, biz öz tələbatımızı ödəyə bilməyəcəkdik".

## DÖVLƏT BAŞÇISININ SƏRƏNCAMI "AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ GƏMİÇİLİYİN YENİ GƏMİSİNƏ VƏ PİRŞAĞI QƏSƏBƏSİNDƏKİ 112 NÖMRƏLİ TAM ORTA MƏKTƏBƏ XOŞBƏXT YUSİFZADƏNİN ADI VERİLİB

Şərəfli və qürurlandırıcı ömür yaşayan X.Yusifzadə Azərbaycanda və Xəzər dənizində neft və qazçıxarmanın inkişafına verdiyi böyük töhfələrə görə, bir çox yüksək dövlət mükafatlarına və fəxri adlara layiq görülüb. 2000-ci ildə o, Müstəqil Azərbaycanın "İstiqlal" ordeni, 2004-cü ildə "Əsrin müqaviləsi"nin 10 illiyi münasibətilə "Şöhrət" ordeni, 2010-cu ildə "Şərəf" ordeni, 2015-ci ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", 2017-ci ildə 1-ci dərəcəli "Əmək" ordeni, 2019-cu ildə Heydər Əliyev mükafatı ilə təltif edilib. 90 illik yubileyində isə "Heydər Əliyev" ordeni ilə təltif edildi. Dövlət başçısının daha bir Sərəncamı ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Gəmiçiliyin yeni gəmisinə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, görkəmli neftçi alim və geoloq, akademik Xoşbəxt Bağı oğlu Yusifzadənin adı verilib. Sərəncama əsasən, Bakı şəhəri, Sabunçu rayonunun Pirşağı qəsəbəsindəki 112 nömrəli tam orta məktəbə isə akademik Xoşbəxt Yusifzadənin adı verilib.

Dövlətin ən ali mükafatlarına əməyi, elmi fəaliyyəti, işinə bağlılığı ilə nail olub. Yubiley mərasimində dövlət başçısı "Buraya gələrkən baxıb gördüm ki, Xoşbəxt müəllimdə Azərbaycanın yalnız "Vətənə xidmətə görə" ordeni yoxdur" deyib və bildirib ki, onu da saxlamışam 95 illik yubileyinə.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ermənistan mətbuatı nə yazır?

## Vaan Babayan: “Paşinyan ailəsinə başa sala bilmir ki, siyasətə qarışmaq olmaz”

***“P**aşinyan öz ailəsinə başa sala bilmir ki, siyasətə qarışmaq olmaz”. Bunu “news.am”-a Ermənistan parlamentinin sabiq deputatı Vaan Babayan Nikol Paşinyanın böyük qızı Mariyam Paşinyanın Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyanla bağlı ictimailəşdirdiyi yazılarına münasibətini açıqlayarkən deyib.*

“Paşinyan ailəsinə heç cür başa sala bilmir ki, siyasətə qarışmaq olmaz, anlada bilmir ki, bütün bu kimi məsələlər ona daha ciddi ziyanlar verir” deyə Babayan qeyd



edib. Onun sözlərinə görə, MTX-nin sabiq direktoru kimi, Vanetsyan da bu kimi məsələlərə reaksiya göstərməməli idi.

Sözügedən məsələ ilə bağlı “Vətəndaş anlayışı” ictimai təşkilatının sədri Narek Simonyan da fikrini bildirib. O, qeyd edib ki, dünyadakı dövlət başçılarının ailə üzvlərinin heç biri siyasətlə məşğul olmur, Ermənistanda isə, tamamilə ayrı mənzərədir. “Paşinyan, sadəcə, öz ailəsinə rəhm eləmir. Bu adamın arvadı siyasətlə məşğuldur, qızı siyasətlə məşğuldur. Mənə xəbərdarlıq edirlər ki, danışmayım, uşaqdır, lakin mən Mariyam Paşinyanı yetkin şəxs adlandıraraq, yaşlı insanları təhqir etmək istəmirəm” deyə Narek Simonyan bildirib.

### “Mişustin ermənidir”

“Xəbər verildiyi kimi, Rusiya prezidenti Vladimir Putin yeni baş nazir postuna Mixail Mişustini təklif edib. O, buna qədər Rusiya Federasiyasının vergi xidməti rəisi vəzifəsini icra edib”. Bu barədə Ermənistanın “armenianreport” portalı Rusiyanın ınfoteka24.ru saytına istinadən xəbər verir.

Lakin maraqlı məqamlardan biri də budur ki, ermənilər bu dəfə də öz köhnə xislətlərindən əl çəkməyərək, Mişustini erməniləşdirməyə cəhd göstəriblər. Belə ki, həmin informasiyadan sonra, belə bir iddia irəli sürülüb ki, Mixail Mişustinin soy-kökü ermənidir. SİTAT: “Mixail Mişustini Ermənistanla sıx bağlar bağlayır və mümkündür ki, bu, heç də təsadüfi deyil. Məsələ ondadır ki, bəzi ekspertlərin sözlərinə görə, Rusiyanın gələcək mümkün baş naziri ana xətti ilə ermənidir”.

“Mişustin ötən ilin yayında İrəvanda keçirilmiş Ümumdünya İnformasiya Texnologiyaları - WIST-2019 konqresində iştirak edib. Səfəri çərçivəsində məşhur “Ayb” məktəbini də ziyarət edib” deyə yazılan informasiyada o da bildirilir ki, onun yaxın dostlarından biri “Beynəlxalq kompüter klubu”nun təsisçisi Levon Amdilyandır və o, təhsilindən sonra orada işləyib: “İxtisasına görə, o, sistem texnikaları üzrə mühəndisdir və mümkündür ki, məmur biliklərində peşəkarlığı və Ermənistanla əlaqələri iki ölkə arasında informasiya texnologiyaları sahəsindəki əməkdaşlığını inkişaf etdirəcək.”

### Anti-paşinyançı siyasətçidən maraqlı polis ziyarəti

Ermənistanın “VETO” ictimai-siyasi hərəkatının təsisçisi Narek Malyan hüquq-mühafizə orqanlarına son bir ildə 100-cü dəfə dəvət olunub və onun bu dəvətə özünəməxsus tərzdə getməsi maraqla qarşılanıb.



Qeyd edək ki, Narek Malyan Nikol Paşinyan hakimiyyətini sərt şəkildə tənqid etməklə yanaşı, ölkəsinin sorosçular tərəfindən idarə edildiyini bildirir.

Beləliklə, Malyan 100 rəqəminin yubiley rəqəmi olduğunu əsas gətirməklə, getdiyi hüquq-mühafizə orqanlarını məsxərəyə qoyub. Bu barədə “aysor.am” yazır. Məlumata görə, siyasətçi polislə 100-cü görüşünə bayram əhval-ruhiyyəsində gedib - kəpənək qalstukda, bayram şapkasında, tort, şampan şərabı və gül buketi ilə.

“Sorosçular müxtəlif şərbaz dosonları ilə mənə qarşı cinayət təqibi aparırlar. Lakin bir çox yalançı ərizələr, şikayətlər öz nəticəsini vermir. Çünki onların hər biri böhtandır” deyə mediaya açıqlama verən müxalif siyasətçi istehza ilə deyib ki, artıq bu, onun hüquq-mühafizə orqanına etdiyi 100-cü - yubiley ziyarətidir: “Son vaxtlar Malatiya rayonunun polisindən incimişəm, özlərini çox passiv aparırlar. Yadımdadır, ilk 15 ziyarətlərim Malatiya rayonunun polis şöbəsində olub. Lakin bu prosesdə polis şöbəsi rəqabətdən çıxdı və belə oldu ki, onları Arabktr istintaq şöbəsi keçdi. Mən artıq buraya 100-cü dəfədir ki, gəlirəm”.

Narek Malyan qeyd edib ki, bu dəfə də onu hansı iş üzrə çağırılması kursundadır. “Məni 100-cü dəfə ifadə verməyə çağıran sorosçu yazdığım “Sodomun piarı” kitabımı hədiyyə alacaq” deyə o bildirib.

Malyan, hətta istintaqçı üçün çiçək buketi də hazırlayıb, belə ki, onun hüquq-mühafizə işçilərinə qarşı psixoloji bağlılığı yaranıb: “Mən öyrəndim ki, istintaqçı qadındır. Belə qərara gəldim ki, ona gül buketi təqdim edim. Sorosçulara arzu edirəm ki, onların arzuları baş tutsun və düşünürəm ki, bir il ərzində, biz onların məsələlərini sərt metodlarla həll edəcəyik. Çünki insanlar məcbur olmamalıdırlar ki, onların maraqlarına görə iş-güclərini atıb, hüquq-mühafizə orqanlarına getsinlər. Artıq mən bu prosesdən həzz almağa başlamışam və bu, sorosçular üçün çox təhlükəlidir”.

***Rövşən RƏSULOV***

# “Modern Diplomacy” nəşri Azərbaycanda aparılan islahatlar barədə məqalə dərc edib

***“M**odern Diplomacy” nəşrində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) eksperti Vasif Hüseynovun Azərbaycanda aparılan islahatların dövlətin xarici siyasətinə təsiri mövzusunda məqaləsi yayımlanıb.*

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, məqalədə Azərbaycanda 1990-cı illərdə qurulmuş iqtisadi və siyasi sistemin beynəlxalq münasibətlərdəki yeni reallıqlar fonunda islahatlara ehtiyac duyduğu və ölkə rəhbərliyinin bu çağırışlara adekvat cavab verdiyi qeyd edilir. İslahatlar prosesinin dünya bazarında enerji qiymətlərinin qəfil ucuzlaşmasından əvvəl başladığını bildirən müəllif qeyd edir ki, 2012-ci ildə istifadəyə verilmiş “ASAN xidmət” bunun bariz nümunəsidir.




Qeyd olunur ki, 2019-cu ildə islahatlar prosesi indiyə qədərki ən yüksək səviyyəyə çatıb. Ölkədəki gəncləşmə prosesi, yeni nəsil teknokratların önə çəkilməsi, maliyyə idarəçiliyində daha çox şəffaflıq, məhkəmə sistemində irəliləyişlər Azərbaycan iqtisadiyyatının gələcəyi üçün faydalı təməl rolunu oynayacaq. Müəllif bu dəyişikliklərin Azərbaycanın Cənubi Qafqazın iqtisadi xəritəsində aparıcı rol oynamasını təmin edəcəyini, dövlətin beynəlxalq və regional nəqliyyat layihələrinə, həmçinin digər iqtisadi layihələrə əvvəllər olduğu kimi, yenə də lazımi investisiya qoymasına şərait yaradacağını bildirib.

Vurğulanır ki, Azərbaycan Türkiyə, Rusiya, Qazaxstan, Belarus kimi mühüm tərəfdaşlarla böyük ambisiyalı nəqliyyat və enerji layihələri sahəsində əməkdaşlığı genişləndirir. Çinin “Bir kəmər, bir yol” təşəbbüsündə iştirak, TANAP boru kəmərinin istifadə verilməsi və s. layihələr ölkəmiz üçün olduğu kimi, bu layihələrdəki tərəfdaş ölkələrin iqtisadiyyatı üçün də ciddi əhəmiyyət daşıyır.

Azərbaycandakı sabit siyasi və iqtisadi vəziyyətin, eyni zamanda, Cənubi Qafqazın təhlükəsizliyi üçün əhəmiyyət kəsb etdiyini bildirən müəllif ölkəmizin çətin məqamlarda öz qonşularına dəstək verdiyini və kömək etdiyini diqqətə çatdırıb. Diqqətə çatdırılır ki, Azərbaycandakı islahatlar, eyni zamanda, ölkəmizin Qərbdən olan tərəfdaşları ilə əlaqələrinin daha da inkişafı üçün şərait yaradır. Azərbaycanda ictimai xidmətlərin optimallaşdırılması, gəncləşmə prosesi və son islahatlar nəticəsində yaranan yeni siyasi mühit Avropa İttifaqının “Şərq Tərəfdaşlığı” proqramında elan edilən hədəflərlə uzlaşır və ona görə də dəstəklənməlidir. Məqalənin tam mətni ilə aşağıdakı linkdən tanış olmaq mümkündür: https://moderndiplomacy.eu/2020/01/15/external-implications-of-domestic-reforms-in-azerbaijan

# Naxçıvan şəhərində “ASAN xidmət” mərkəzi tikiləcək




**P**rezident İlham Əliyev yanvarın 16-da “Naxçıvan şəhərində “ASAN xidmət” mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Naxçıvan şəhərində “ASAN xidmət” mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 8,8 milyon manat ayrılıb.

# Müdafiə naziri tikintisi yekunlaşmaq üzrə olan hərbi obyektlərə baxış keçirib



**A**zərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən şəxsi heyətin xidməti, eləcə də sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə hərbi hissələrdə inşaat və təmir-bərpa işləri intensiv şəkildə davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov tikintisi yekunlaşmaq üzrə olan hərbi hissələrdən birində olub. Məruzə edilib ki, tikintisi qısa müddətdə sona çatdırılacaq qərargah binası, əsgər yataqxanaları, tibb məntəqəsi və digər obyektlər hərbi qulluqçuların yüksək səviyyədə xidməti-döyüş fəaliyyəti göstərmələri üçün nəzərdə tutulub. Hərbi hissədə aparılan tikintinin gedişatını yoxlayan Müdafiə naziri inşaat işlərinin keyfiyyətli aparılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

# Baş nazirin reallaşmayan yalançı vədləri

## Çəkiclə zindan arasında qalan Paşinyan



***Ermənistanın baş naziri Nikol Paşinyan, il yarımdan artıq bir müddət ərzində Ermənistan üçün son dərəcədə ağır və məyusluqla dolu bir il olduğu artıq sadə erməni vətəndaşında belə şübhə yaratmır. Ancaq onlar belə vəziyyətin yaranmasında nə qonşuları, nə onlardan üz döndərmiş havadarları, nə də ki, 2019-cu ili günahkar bilirlər. Artıq erməni xalqı əsl günahkarın kim olduğunu görür və yavaş-yavaş anlayır.***

Anlayır ki, əvvəlki rəhbərlər kimi, küçə təfəkkürlü "küçə demokratı" Nikol Paşinyan da onlardan geri qalmayıb: eyni vədlər, eyni pafoslu çıxışlar, nəticə isə yox. Və sözsüz ki, bu gün, ən azından, dünya demokratiyadan danışdığı bir vaxtda aqressiv siyasət yeridərək, bu məsuliyyəti öz uydurulmuş tarixi ədalətlərini bərpa etməyə yönəldilmiş fəaliyyətlə maskalamaqla demokratik və ədalətli dövlət imici yaratmaq mümkün deyil. Nə qədər ki, işğalçılıq siyasəti yeridiləcəksə, ölkə hakimiyyəti də dalana dirənəcək. Və nə qədər ki, işğal olunmuş Azərbaycan torpaqları geri qaytarılmayıb, məhz Ermənistan dövlətinin regionun lider dövləti olan Azərbaycan və onun yaxın müttəfiqi Türkiyə tərəfindən regiondakı bütün layihələrdən kənarda qalacaq. Məhz bunun nəticəsidir ki, Ermənistan iqtisadi inkişaf deyilən xəyaldan uzaq düşməkdədir. Belə olan halda isə, uzun müddət Ermənistanı, məhz bu vəziyyətdə saxlamaq istər erməni diasporası, istərsə də Rusiya üçün iqtisadi cəhətdən əlverişli deyil. Bu yardımların kəsilməsinin əsas səbəblərindən biri də erməni



hakimiyyətinin ayrılan maliyyəni necə istifadə etməsidir.

### Şəxsi ambisiyalar üzərində qurulmuş boş vədlər

Bu, həqiqətən də, belədir. Belə ki, ötən ilin sonuna yaxın "küçə demokratı" Nikol Paşinyan xalqa verdiyi vədlərin bu gün nəticə verməmdiyi ölkədə, böyük gərginlik yaradıb. Daha doğrusu, Paşinyanın ambisiyaları xalqın istəyi ilə üst-üstə düşmədiyi üçün, Nikola olan inamı azaldıb.

Politoloqlar da bildirirlər ki, Paşinyan hakimiyyətə gələn gündən təxribat dolu bəyanatlar yayır. Onun separatçı Dağlıq Qarabağ rejiminin danışıqlara cəlb edilməsi fikrini səsləndirməsi, vəziyyəti daha da çətinləşdirib. Artıq Ermənistan əhalisi Paşinyanın populist çıxışlarına inanmır, düşdükləri çətin sosial və iqtisadi uçurumdan xilas olmaq istəyir. Görünən isə odur ki, Nikol Paşinyanın şəxsi ambisiyaları xalq və vətən sevgisindən daha üstündür. Bu isə, Ermənistan üçün yeni bir uçurumun başlanğıcı deməkdir.

### Levon Ter-Petrosyan: "Çoxlarımızın boş əfsanə sandığı cəhənnəm Paşinyanın hakimiyyət illəridir"

Bu sözləri biz yox, Ermənistan Milli Konqresinin rəhbəri Levon Ter-Petrosyan ölkədəki mövcud vəziyyəti qiymətləndirərkən deyib: "Çoxlarımızın boş əfsanə sandığı cəhənnəm artıq xəyal deyil, əsl həqiqətdir. Bu cəhənnəmi gözlə görmək istəyirsinizsə, buyurub Ermənistana gəlin. Qarşınızda sözlə ifadə edilə bilməyəcək qədər dəhşətli bir mənzərə canlanacaq. Bu, Paşinyanın hakimiyyəti illəridir. Dilənçilərlə dolu küçələr, ağır iqtisadi böhran üzündən gündəlik çörəyinə möhtac qalmış biçarə insanların acı ah-naləsi, ölkəni öz ağuşuna almış işsizlik və səfalət üzündən könüllü surətdə baş verən intiharlar və intihara cəhdlər, sakinləri kütləvi surətdə köçüb getmiş kəndlərdən gecələr



lən canavar ulartıları, daha nələr, nələr..."

L.Ter-Petrosyanın "Armeniya Today" portalında verdiyi açıqlamasında, onu da bildirib ki, "Ermənistanın şəhər və kəndlərində yaşayan əhalinin 98 faizi aclıq və yoxsulluğun caynaqlarında boğulur. Bu gün Ermənistan büdcəsi 7,5 milyard olmalı idi. Hər il həmin sərvətin 5 milyardını Serj Sarkisyan, Tiqran Sarkisyan, onlara qədər isə Robert Koçaryan oğurlayıb. Ölkədəki ağır iqtisadi böhran üzündən 1998-ci ildən bu günədək Ermənistanı 1 milyondan artıq insan tərk edib. Əksəriyyəti də yüksək ixtisaslı mütəxəssislər, görkəmli yaradıcı ziyalılar və onların ailə üzvləridir. İndi isə Nikol Paşinyan bu yolu davam etdirməkdədir. Və bu ölkə iqtisadi böhran, haqsızlıq və ədalətsizlik bataqlığından qurtula bilməyəcək. Sarkisyan rejiminin davamçısı olan Nikol Paşinyanın dövləti idarəetmə metodları dünyanın ən geridə qalmış, yoxsul dövlətlərindəki idarəetmə sisteminin, sadəcə, kserokopiyasıdır. Ermənistanda əhalinin 65 faizi ağır yoxsulluq səviyyəsində, 26 faizi isə səfil kökündə yaşayır. Xalq tamam unudulub. Əvvəllər olduğu kimi, bu gün də ölkə əhalisi "Ermənistanın gələcəyi varmı?" sualı qarşısında sual işarəsinə dönüb".

Ermənistan mətbuatının verdiyi məlumata görə, ticarət müəssisələrindəki hədsiz bahalıq insanları dəhşətə salıb. 3-4 nəfərlik bir ailəni təkcə ərzaq məhsulları ilə təmin etmək üçün ayda, ən azı, 500 avro tələb olunur. Orta aylıq əməkhaqqı isə cəmi 200 avrodur. Qiymətlərin ilbəil artması fonunda maaşların, təqaüdlərin və sosial yardımların öz yerində ayaq döyməsi və inflyasiyanın ağlasığmaz dərəcədə dərinləşməsi, vəziyyəti ən kritik həddə çatdırıb. Ölkənin əksər bölgələrində, xüsusilə, şimal rayonlarındakı kəndlərdə nə içməli su var, nə də qaz. Hər il yüz minlərlə sadə vətəndaşın canlarını qurtarmaq üçün baş götürüb əcnəvi ölkələrə qaçmalarına da səbəb elə budur. Bəzi ölkələrdən alınan qrantların və diaspor pullarının dayandırılması və azaldılması, Ermənistanın bir dövlət kimi süqutunu daha da sürətləndirib.

### Ermənistan "siyasi yumaq" kimi düyünlənə-düyünlənə qalıb

Artıq Ermənistan elə bir oyuna, həm də, elə bir düyünə düşüb ki, nə oyundan çıxa bilir, nə də düyünü aça bilir. Bunun səbəbi və günahı erməni xalqının özündədir. Və bundan istifadə edən N.Paşinyan da, qısa müddətdə, onsuz da dolaşıq olan Ermənistanın siyasi mühitini qatı "dumana bürüməyi" bacardı!

Belə olan halda, vay erməni xalqının halına. O zaman erməni xalqı özü bu gününü düşünməli, düşdükləri dumanlı mühitdən çıxmaq üçün üzdəniraq "küçə demokratının" dərsini verməli və onlardan Azərbaycanla niyə düşmən olmalarının hesabını sormalıdır. Erməni xalqı tələb etməlidir ki, qonşuların torpaqlarını işğal etmək kursundan əl çəkib, insanların həyat şəraitini yaxşılaşdırmaq xəttini götürmək gərəkdir. Bunun üçün də təcavüzkar siyasətdən əl çəkilməlidir.

Təəssüf ki, Ermənistanda xalqın bu cür ayağa qalxmasını indi gözləmək elə də inandırıcı deyil. Çünki cəmiyyət o dərəcədə siyasi dərketmə baxımından öldürülüb ki, sadə erməni nəyin baş verdiyini anlaya bilmir. Buna rəğmən, zaman erməni xalqının əleyhinə işləyir. Sabah gec ola bilər!

Bəs çıxış yolu... Siyasətçilər dəfələrlə vurğulayıblar ki, Qarabağ münaqişəsi nizamlanmadan, heç bir problem həll oluna bilməz. Bunu nə ilə izah edirsən et, heç nə dəyişmir. İstər mücərrəd surətdə erməni xalqının iradəsindən bəhs et, istərsə də Paşinyan hakimiyyətinin siyasi iradəsindən dəm vur və ya başqa tarixi "faktlar" gətir, reallıq budur: təcavüzkar zəbt etdiyi torpaqlardan getməlidir, vəssalam!

***A.SƏMƏDOVA***

# Qəhrəmanlıq zirvəsi

*20 Yanvar faciəsi tariximizin qan yaddaşı*

***A**zərbaycan xalqının tarixinə qəhrəmanlıq zirvəsi kimi daxil olan qanlı 20 Yanvar Faciəsindən 30 il keçir. Respublikamızın hər yerində bu faciə ilə bağlı geniş tədbirlər keçirilir, şəhidlərimizin qəbirləri ziyarət edilir və ruhlarına dualar oxunulur. Hadisə ilə bağlı siyasətçilərimiz, ziyalılarımız, ümumiyyətlə, bütün Azərbaycan xalqı bu tarixi hadisəni xalqımızın milli-azadlıq mübarizəsinin qəhrəmanlıq zirvəsi olduğunu bildirdilər.*

**YAP Biləsuvar rayon təşkilatının sədri**
Kamil Mirzəyev:



- Xalqımızın tarixinə həkk olunmuş 20 Yanvar faciəsinin 30 illiyi, respublikamızın hər yerində olduğu kimi, Biləsuvar rayonunda da geniş tədbirlər keçirilməkdədir. Azərbaycan xalqının istiqlaliyyət yolunda şəhidlik zirvəsi olan 20 Yanvar faciəsi milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, həm də uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda Sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli və kütləvi qırğın hadisəsi törədildi. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, azadlıq istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi.

Xalq o müdhiş günlərdə Ulu Öndər Heydər Əliyevin yoxluğunu ən böyük həqiqət kimi dərk etdi. Amma Bakıda olmamasına baxmayaraq, xalqının səsinə hər kəsdən əvvəl səs verən də elə Ulu Öndər Heydər Əliyev oldu.

Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli Fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisdə müzakirələrin yekunu olaraq, 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi. Qərarda, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi.

Bu gün Ulu Öndər Heydər Əliyevin bu sahədə siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev bu istiqamətdə sərəncam və fərmanlar imzalamışdır. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunmuşdur. Ötən illər ərzində, 20 Yanvar əlilləri və şəhid ailələri mənzillə təmin edilmişlər. Əlillərə minik avtomobilləri verilmiş, şəhid ailələrinə Prezident təqaüdü təyin olunmuşdur. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da yaxşılaşdırılır. Həmçinin, xeyirxah əməllərin davamçısı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da daima öz yüksək qayğı və diqqətini göstərməkdədir.

Allah şəhidlərimizin ruhunu şad eləsin!

**YAP Xızı rayon təşkilatının sədri**
Fərrux Haqverdiyev:



- Azərbaycan xalqının qan yaddaşına həkk olunan 20 Yanvar faciəsi əbədi olaraq qalacaq və heç vaxt unudulmayacaq. Çünki həmin gün Azərbaycan xalqının taleyində də nəhs və qorxunc günlər yaşanırdı. Bir şeyi unutmamalıyıq ki, 20 Yanvar Azərbaycan xalqının tarixində, sadəcə, ağrı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar, həm də xalqımızın şan və şərəf günüdür. Unutmamalıyıq ki, həmin gün küçələri boyamış al şəhid qanları bir anlamda milli məfkurəmizin oyanan günəşinin qırmızı şəfəqini simvolizə edirdi. Xalqımız həmin gün üstünə şığıyan dəhşətli kabusa - Sovet hərbiyyəsinin qorxunc qaragüruhuna qarşı sinəsini verməyi və deməli, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı özgürlük mübarizəsinə qalxmaq, pozulmuş hüquqlarının və suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir. 1990-cı ilin 20 Yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi idi. Ötən illər ərzində, "Qanlı Yanvar"ın tarixi, mənəvi, siyasi və s. aspektləri analiz edilib, hadisəyə Azərbaycan dövləti tərəfindən hüquqi qiymət verilib.

Həmin gün Azərbaycanın o vaxtkı rəhbərliyinin istəyi və SSRİ rəhbərliyinin əmri ilə Azərbaycanda kommunist rejimini saxlamaq və milli-azadlıq hərəkatını boğmaq məqsədilə Bakıya böyük bir ordu (rəsmi rəqəm 35 mini göstərir) yeridildi. SSRİ Müdafiə Nazirliyi, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda 134 mülki vətəndaş öldürüldü, 600-dən çox adam yaralandı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın və uşaq var idi. "Qara Yanvar"ın indiyədək özündə saxladığı sirlər çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılıb və bir daha geri qaytarılmayıb. Azərbaycan xalqının məruz qaldığı bu təcavüz indiyədək bəşəriyyət əleyhinə cinayət kimi beynəlxalq müstəvidə layiq olduğu tənnifatı almayıb.

**YAP Şabran rayon təşkilatının sədri**
Mehdi Balabəyov:



O gün gecənin zülmətindən istifadə edən rus əsgəri yurddaşlarımızın əzəmətindən qorxub gizlənmişdi. O gün Moskvada matəm saxlayan Ümummilli Liderimiz Heydər Əliyevin etiraz səsi bütün dünyaya yayıldı. O gün heç kəs başını aşağı əymədi. Biz şəhid verdik, lakin qalib gəldik. Biz nə əyildik, nə sındıq. O gün "Azadlıq" sədası göylərə qalxdı. Biz o azadlığı qanımız bahasına əldə etdik.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı ilk illərdə başları hakimiyyət uğrunda mübarizəyə qarışmış respublika rəhbərləri 20 Yanvar qırğınına siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Yalnız 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin səyi ilə Qanlı Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi və faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi.

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək, hər il yanvarın 20-də onların xatirəsini dərin ehtiramla yad edir. Hər il dövlət səviyyəsində geniş tədbirlər planı hazırlanaraq həyata keçirilir, qanlı qırğının ildönümü respublikanın bütün şəhər və rayonlarında qeyd olunur. Şəhidlər Xiyabanının girişindən başlayaraq, hər yer al-qırmızı qərənfilə bürünür. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi, Qorbaçov başda olmaqla, cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi. 20 Yanvar hadisələrində xalqımız qurbanlar versə də, həmin faciəli gün inam və sınaq günü kimi yadda qalmışdır. Xalqımız həmin gün özünün azad və müstəqil yaşamağa layiq olduğunu bir daha sübut etmişdir. Çünki burada uyuyan insanlar saf, təmiz əqidə və ideya uğrunda ölümə gediblər.

**RƏFİQƏ KAMALQIZI**





## YAP Quba rayon təşkilatının yaradılmasının 27-ci ildönümü qeyd olunub

**D**ünən Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının yaradılmasının 27-ci ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə çıxış edən YAP Quba rayon təşkilatının sədri Yusif Abidov Yeni Azərbaycan Partiyasının ölkəmizin çətin və böhranlı dövründə zərurətdən meydana gəldiyini qeyd edərək, partiyanın keçdiyi şərəfli yoldan danıb. Rayon təşkilatı sədri qeyd edib ki, YAP-ın yaradılması YAP Quba rayon təşkilatının yaradılması arasında qısa zaman kəsiyi olmuşdur. Belə ki, 1993-cü ilin yanvar ayının 16-da YAP Quba rayon təşkilatı yaradılmışdır: "YAP Quba rayon təşkilatı ötən dövr ərzində, partiyanın yaradıcısı Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarının təbliğ edilməsi istiqamətində ölkəmizdə uğurla həyata keçirilən ictimai-siyasi proseslərdə yaxından iştirak etmişdir. Bu gün, artıq fəxr və inamla deyə bilərik ki, YAP Quba rayon təşkilatı sağlam düşüncəli, partiyanın amalına sədaqətli, möhkəm əqidəli, Cənab Prezidentin daxili və xarici siyasətini başa düşən, onu ürəkdən bəyənən və dəstəkləyən 8494 nəfərdən artıq partiya üzvünü öz ətrafında birləşdirib".

Sonda partiya işində fərqləndiklərinə görə, bir qrup partiya üzvü YAP Quba rayon təşkilatı tərəfindən fəxri fərmanla təltif edilib.

### QUBADA MÜŞAHİDƏÇİLƏRLƏ TRENİNQ KEÇİRİLİB

Sonra 9 fevral 2020-ci il tarixində keçiriləcək parlament seçkiləri ilə əlaqədar 52 saylı Quba seçki dairəsi və məntəqələrində səsvermə günü müşahidə aparacaq müşahidəçilərlə treninq keçirildi. YAP Quba rayon təşkilatının sədri Y.Abidov parlament seçkilərinə hazırlıqla bağlı YAP tərəfindən görülən işlər haqqında məlumat verərək, qeyd etdi ki, Yeni Azərbaycan Partiyası qarşıdan gələn seçkilərə ciddi hazırlaşıb və mərhələlər üzrə işlər davam etdirilir. Y.Abidov çıxışında seçki məntəqələrinə təyin edilmiş müşahidəçilərin vəzifələri barədə də ətraflı danışaraq, treninq iştirakçılarını məlumatlandırıb. O bildirib ki, parlament seçkilərinin yüksək standartlara uyğun, aşkarlıq və demokratiya şəraitində keçirilməsi üçün müşahidəçilərin üzərinə böyük məsuliyyət düşür. Onu da, diqqətə çatdırıb ki, müşahidəçilərin Seçki Məcəlləsində təsbit olunmuş hüquq-vəzifələri və səlahiyyətləri var.

Treninq diskussiya şəklində keçirilib və iştirakçıları maraqlandıran suallara cavablar verilib.

**Nəzakət ƏLƏDDİNQIZI**

## "Nəqliyyat sahəsində əməkdaşlıq Azərbaycanı Körfəz ölkələri, İranı isə Rusiya və Avropa ilə birləşdirəcək"



**İ**ranla Azərbaycan arasında nəqliyyat sahəsindəki əməkdaşlıq əlaqələrinin inkişafı hər iki dövlətin maraqlarına cavab verir. AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Beynəlxalq Yol və Nəqliyyat Təşkilatının baş direktoru Mənuçöhr Salmanzadə deyib. O vurğulayıb ki, hər iki dövlətin müvafiq strukturları arasında tranzit yüklər üçün rüsumların müəyyənləşməsi və gömrük-keçid prosedurlarının asanlaşdırılması istiqamətində razılıq əldə olunub. Bu razılaşma ticarət dövriyyəsinin artmasına, iş adamlarının qarşılıqlı investisiya yatırmasına böyük imkanlar yaradıb. Onun sözlərinə görə, nəqliyyat sahəsində əməkdaşlıq əlaqələrinin genişlənməsi Azərbaycanı Körfəz ölkələri, İranı isə Rusiya və Avropa ilə birləşdirəcək.

# Müxalifət YAP-dan niyə və necə fərqlənir

## Və ya qüdrətli YAP qarşısında müxalifətin rüsvayçılığı



Azərbaycan dövlətçiliyinin və xalqının maraqlarına, bütövlüklə, cavab verən, reallaşdırdığı uğurlu siyasi idealogiyası ilə dünyanın siyasi təşkilatları sırasında nəhəngə çevrilən Yeni Azərbaycan Partiyasının keçdiyi hər ilinin region və bölgələrimizdə böyük təntənə ilə qeyd olunması faktoru, bir daha sübut edir ki, YAP, məhz xalqın partiyası olaraq, Ulu Öndər Heydər Əliyev ideyalarını əməli nəticələri ilə daima gerçəkləşdirir. Söz yox ki, bu gün Azərbaycanda fəaliyyət göstərən digər siyasi təşkilatların sayı da kifayət qədərdir. Xüsusilə, müxalifət partiyalarının ölkədəki fəaliyyətləri, daha bir amilə dəlalət edir ki, Azərbycanda ictimai-siyasi mühit sivil qanunlarda tələb olunan bütün demokratik dəyərlərə cavab verir və hər bir siyasi partiyanın fəaliyyət istiqaməti azaddır. Bu baxmdan, Ulu Öndər Heydər Əliyevin müxalifətçilik faktoru haqqında dediyi kəlamını bir daha xatırlatmaq yerinə düşərdi: "Müxalifətçilik lazımdır, amma aparılan müxalifətçilik dövlətçiliyin və xalqın maraqlarına qarşı zidd olmamalıdır".

### Müxalifət partiyaları hər post-seçki dövrlərində guya qələbə qazanacaqlarını iddia etməklə, özlərini daha çətin durumlara qoyurlar

Təəssüflər olsun ki, hakimiyyətə gəlmək yolunu dağıdıcılıqda görən bəzi müxalifət partiyaları yuxarıda qeyd edilən faktora qeyri-ciddi nəzərlərlə baxır, siyasi mübarizələrinin tərkib hissələrini, məhz anarxiya yolunda aparmağa cəhd göstərirlər. Eyni zamanda, ümummüxalifətçilik dəyərlərindən qat-qat uzaq olan bu dairələr öz aralarında da birincilik uğrunda qeyri-sivil mübarizələr aparmaqla sübut edirlər ki, onların əsas məqsədləri xalqın və dövlətin maraqları deyil, məhz şəxsi siyasi dividendlərin artırılmasından ibarətdir. Müsavat, AXCP, AXP, "ACP", ALDP, ADP, AMİP və digər bu kimi partiyaların ayrı-ayrı blok və birliklərdə təmsil olunmaları da, qeyd olunan fikirlərin bariz isbatıdır. Və həmçinin, yaratdıqları "İctimai Palata"dan tutmuş "Milli Şura" adla bu kimi qondarma qurumlarda guya hər hansı siyasi gedişlər etdiklərini sərgiləyən müxalifət partiyaları, əslində, uğradıqları məğlubiyyətlərinin acılarını çəkməklə məşğuldurlar. Anti-Azərbaycan meyilli xarici təşkilatlarla sıx təmaslarda olan, həmin təşkilatlardan qrant payları uman bu kimi satqın və mənəviyyatsız müxalifət siyasi təşkilatları xalqa və dövlətçiliyə qarşı göstərdikləri xəyanətlər toplumu azmış kimi, müxtəlif zamanlarda hakimiyyətə gəlməkdən ötrü, hətta şeytanla belə, əməkdaşlığa hazır olduqlarını bəyan edirlər.

Onların zaman-zaman əzəli torpaqlarımızın 20 faizindən çoxunu işğal etmiş, azərbaycanlıların qanına susamış erməni təşkilatları ilə mütəmadi əlaqələr qurmaları, xaricdə fəaliyyət göstərən erməni lobbiçilərindən maddi gəlirlər əldə etmələri də deyilənləri kifayət qədər təsdiq edir.

### Əli Əhmədov: "Əli Kərimli real müxalifətçiliyin bir fayda vermədiyini anladıqdan sonra virtual müxalifətçiliyə keçib"

Baş nazirin müavini, hakim Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov "Virtual müxalifət" adlı məqaləsində yazır ki, Azərbaycanda son vaxtlar yeni müxalifət növünün formalaşması heç kimə sirr deyil: "Qısa şəkildə onu virtual müxalifət adlandırmaq olar. Müxalifətin bu növünün başında Əli Kərimli və xarici ölkələrdə sığınacaq almış fərdlər durur. Qədimdən mövcud olan virtual sözü o şeyi ifadə edir ki, fiziki olaraq mövcud deyil və yalnız kompüter şəraitində, fantaziyalarda görünür. Virtual sözü kimi Ə.Kərimlinin müxalifətçiliyi də qədimdir, 30-dan çox yaşı var. Real müxalifətçiliyin bir fayda vermədiyini anladıqdan sonra virtual müxalifətçiliyə keçib".

Ə.Əhmədov sosial şəbəkələrdə özünü Azərbaycan müxalifətçisi kimi təqdim edib "canfəşanlıq" göstətənlərin nə azərbaycanlı, nə də Azərbaycan vətəndaşı olmasının mümkünsüz olduğunu yazıb: " Xatırlayırsınızsa, biz bu yolu bir dəfə keçmişik. 1992-1993-cü illərdə. Onda da bu yolla hakimiyyətə gələnlərin ən "parlaq" nümayəndələrindən biri, məhz Əli Kərimli idi. Fərq bundadır ki, əvvəllər o, söyüş söyənlər komandasının sıravi üzvü idi, indi isə komandanın başında durur, tapşırıqlar verir... Onlar anlayırlar ki, rəqabət apardıqları Yeni Azərbaycan Partiyasının yüksək tərbiyəsi, əxlaqı, mədəniyyəti ilə seçilən üzvlərinə qarşı intellektual yarışda qalib gəlmək imkanına malik deyillər. Ona görə də virtual müxalifətin ifasında siyasi-intellektual diskussiyaların yerini söyüş və təhqirlər tutur. Yəqin bir də, ona ümid edirlər ki, mənəvi terror vasitəsilə Yeni Azərbaycan Partiyasının ləyaqətli insanlarını, gəncləri, oğlan və qızları çəkindirib, mübarizə meydanında tək qalacaqlar. Ancaq başa düşə bilmirlər ki, bu mənəviyyat, bu əxlaqla, bu cür mübarizə forması ilə tamam tək qalıblar. Cəmiyyət onlardan üz döndərib".

### YAP müxalifətdə olduğu dövrdə, birmənalı olaraq, dövlətçilik mövqeyində dayanmış Azərbaycanın maraqlarına ziyan vuracaq hər hansı hərəkətə yol verməyib

Bəli, YAP-ın keçdiyi 28 ilə nəzər yetirsək, görərik ki, xalqın partiyası olan bu siyasi təşkilat müxalifətdə olduğu dövrdə, birmənalı olaraq, dövlətçilik mövqeyində dayanmış, hakimiyyətdə olan dairələrin əməllərini, onların xalqa zidd siyasətini tənqid etməklə yanaşı, Azərbaycanın maraqlarına ziyan vuracaq hər hansı hərəkətə yol verməyib. YAP yarandığı gündən Azərbaycan siyasətinə özü ilə birlikdə bir sıra yeniliklər gətirib.

Bu gün xalqımız Ümumxalq Hüzn Günü olan 20 Yanvar Faciəsi Günü ərəfəsindədir. Həmin gün xalq istiqlaliyyət, azadlıq, müstəqillik aşiqlərini ziyarət etmək üçün axın-axın Şəhidlər Xiyabanına gedir. Bu gün isə, əvvəlki seçkilərdə olduğu kimi, bu seçkilərdə də növbəti biabırçı uğursuzluqlarını ört-basdır etmək üçün AXCP sədri Əli Kərimli bu hüzün günü ətrafına topladığı bir qrup adamla müxtəlif şüarlar səsləndirərək, diqqəti özünə cəlb etmək istəyir. Biz belə hadisələrlə dəfələrlə qarşılaşmışıq. Bütün bunlar, bir daha təsdiqləyir ki, AXCP sədri Ə.Kərimlinin tutduğu yol nə milli, nə dövlətçilik, nə də, bütövlükdə, azərbaycançılıq maraqlarına xidmət edir. O, uzun illərdir ki, xarici havadarlarının sifarişlərini yerinə yetirməklə ölkədə qarşıdurma yaratmağa, qeyri-konstitusion yolla hakimiyyəti ələ keçirməyə çalışır. Onun təşkil etdiyi mitinqlərdə səsləndirilən şüarlar bu adamın xəbis niyyətlərini ortaya qoyur. Lakin nə Ə.Kərimlinin, nə də onların xarici havadarlarının, həmçinin, anti-Azərbaycan qüvvələrin maliyyələşdirdiyi insanların - milli xəyanətkarların keçirdiyi mitinqin heç bir təsiri yoxdur. Çünki xalq heç vaxt belə satqınların arxasınca getməz. Belə xəyanətkarların xisləti hamıya bəllidir. Onlar aldıqları çirkli pullar hesabına öz ölkələri, xalqı, Vətəni haqqında danışdıqları təhqiramiz sözlərdən də xəcalət çəkmirlər. Ə.Kərimlinin "şinelindən" çıxmış və bu gün anti-Azərbaycan qüvvələrin əlində siyasi alətə çevrilmiş anti-Azərbaycan şəbəkənin "fəalları" - Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Həbib Müntəzir, Qənimət Zahid və digərləri ölkəmizi gözü götürməyənlərə müticəsinə qulluq göstərirlər. Xarici ölkədə özünü "mübariz siyasətçi" kimi təqdim edən bu satqınlar, ölkəmiz və bir sıra məmurlar haqqında təhqiramiz ifadələr işlətməkdə sanki yarışa giriblər. Bunlar da Ə.Kərimlinin antimilli və xəyanətkar əməllərinin nəticəsidir.

Bir sözlə, Yeni Azərbaycan Partiyası ötən 28 il ərzində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli dövlətçiliyimizin əsaslarının gücləndirilməsində, inkişafa, sabitliyə, tərəqqiyə xidmət edən milli məqsədlərin reallaşdırılmasında və yeni hədəflərin müəyyənləşdirilməsində misilsiz xidmətlər göstərən xalqın partiyasıdır. Ancaq müxalifətdə olub riyakarlıq, böhtan və satqınçılıqla məşğul olan dağıdıcı müxalifət isə, xalqın nifrətinə məhkumdur. Belələrinin əməlləri qanun çərçivəsində araşdırılmalı və hüquqi qiymətini almalıdır.

**Rəfiqə HÜSEYNOVA**

## Təbrizdə nəşr olunan "Sərir Azərbaycan" qəzetində 20 Yanvar faciəsi barədə məqalə dərc edilib

*Təbrizdə nəşr olunan "Sərir Azərbaycan" qəzetində "20 Yanvar Azərbaycan Respublikasında Ümumxalq Hüzn Günüdür" başlıqlı məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə 20 Yanvar hadisələrinin başvermə səbəbləri və nəticələri barədə məlumat verilir.*


صریر آذربایجان
چوب حراج بر اعتبار رسانه‌های داخلی

Bildirilir ki, bu il Azərbaycanın tarixinə 20 Yanvar faciəsi kimi daxil olmuş qanlı hadisələrin 30 ili tamam olur. 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli siyasətinə, Dağlıq Qarabağa iddia edən Ermənistanın təcavüzkar siyasətinin dəstəklənməsinə etiraz olaraq ayağa qalxmış xalqa amansız divan tutuldu. Bu faciə nəticəsində 147 nəfər şəhid oldu, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz olaraq həbs edildi. Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi bu qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüz aktı və qətliamı idi. Keçmiş SSRİ BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını pozmuşdu. Məhz belə bir ağır şəraitdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev SSRİ-nin Azərbaycan xalqına qarşı həyata keçirdiyi qətliama öz cəsarətli etiraz səsini ucaltmışdır. Sovet İmperiyasının bütün təzyiqlərinə baxmayaraq, Heydər Əliyev yanvarın 21-də öz ailə üzvləri ilə birlikdə Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinə gələrək burada təşkil olunmuş, 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda çıxış etmiş, bu ağır günlərdə yaralı, heç yerdən kömək ala bilməyən doğma xalqı ilə birgə olduğunu bəyan etmişdir. O, çıxışında və verdiyi müsahibələrdə 20 Yanvar faciəsinə siyasi qiymət vermiş, əliyalın xalqın qətliamını hüquqa, demokratiyaya, humanizmə zidd addım, İttifaq və respublika rəhbərlərinin günahı ucbatından yol verilmiş kobud siyasi səhv kimi ifşa etmişdir. Heydər Əliyev qorxmadan, özü və ailəsi üçün yaranmış real təhlükəyə baxmayaraq, M.Qorbaçov başda olmaqla SSRİ rəhbərlərinin əsl simasını göstərmişdir. Heydər Əliyev Azərbaycan xalqına verdiyi başsağlığında onu bu ağır gündə təmkinli olmağa, həmrəyliyə və birliyə çağırmışdır. Ulu öndər Heydər Əliyevin tövsiyələrini rəhbər tutan Azərbaycan xalqı Bakıda fövqəladə vəziyyət olmasına baxmayaraq, yanvarın 22-də öz şəhidləri ilə vidalaşmışdır.

Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından 30 il keçməsinə baxmayaraq, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən üstün tutan qəhrəmanlar əsla unudulmur. Hər ilin 20 Yanvar tarixi Azərbaycan Respublikasında Ümumxalq Hüzn Günü kimi yad edilir. Bu tarix həm də Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzidir. Çünki Azərbaycanın 20 Yanvar şəhidləri bu ali dəyərlər uğrunda canlarından keçmiş ilk qəhrəmanlardır. Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda şəhid olanların xatirəsini əbədiləşdirmək məqsədilə ulu öndər Heydər Əliyevin 1998-ci il tarixli Fərmanı ilə Qanlı Yanvar faciəsi zamanı həlak olmuş Azərbaycan Respublikası vətəndaşları üçün "20 Yanvar Şəhidi" fəxri adı təsis edilmişdir. Hər il yanvar ayının 20-də başda Prezident İlham Əliyev olmaqla bütün dövlət və ictimaiyyət nümayəndələri Bakıdakı Şəhidlər Xiyabanını ziyarət edir və şəhidlərə öz ehtiramlarını bildirirlər.

Eləcə də Azərbaycanın bütün bölgələrindəki Şəhidlər xiyabanları yerli əhali tərəfindən ziyarət olunur. Həmin gün saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilir, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində, o cümlədən xaricdəki diplomatik nümayəndəlik və konsulluqlarında 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq Azərbaycanın dövlət bayraqları yarıya endirilir və digər məlumatlandırıcı müxtəlif xatirə tədbirləri keçirilir.

SSRİ-nin yaratdığı informasiya blokadasına baxmayaraq, yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbərdar edilə bilmişdir. Sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir çox ölkələrində, o cümlədən qonşu İran İslam Respublikasında kəskin etirazlarla qarşılanmışdır. İranın Milli Təhlükəsizlik Şurası yığıncaq keçirərək bu barədə bəyanat qəbul etmiş, İran parlamentinin 160-dan çox üzvü M.Qorbaçovun Azərbaycana silahlı təcavüzünü pisləmişdir. İranın Ali Dini Rəhbəri və Prezidenti M.Qorbaçovun atdığı bu addımı kəskin tənqid etmişdilər. Bununla yanaşı, İranın kütləvi informasiya vasitələri sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisəni kəskin tənqid edərək bu hadisələri qırğın adlandırmışdır. Qanı bahasına öz müstəqilliyini əldə edən Azərbaycan bu gün dünyanın sürətlə inkişaf edən dövlətlərindən birinə çevrilib.

# Ombudsman 20 Yanvar faciəsi ilə bağlı bəyanat verib

*İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva 20 Yanvar faciəsi ilə bağlı bəyanat verib*

***Ombudsman Aparatından "Səs" qəzetinə verilən məlumata görə, bəyanat BMT-nin Baş Katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, YUNİSEF-in, YUNESKO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə və Azərbaycanın diaspor təşkilatlarına göndərilib.***



Bəyanatda deyilir: "Azərbaycanın paytaxtı və digər rayonlarında yüzlərlə soydaşımızın qətli, yaralanması və itkin düşməsi ilə nəticələnən 1990-cı il 20 Yanvar faciəsindən 30 il ötür. 1987-ci ildən başlayaraq, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətində baş qaldıran erməni separatizminə keçmiş SSRİ rəhbərliyi tərəfindən dəstək verilməsi və ölkəmizə qarşı qərəzli mövqeyə, azərbaycanlıların Ermənistandakı tarixi-etnik torpaqlarından deportasiya edilməsinə, etnik təmizləmə və soyqırımı siyasətinə etiraz edən xalqımızın haqq səsini boğmaq, Azərbaycanın müstəqilliyə gedən yolunun qarşısını almaq məqsədilə 20 Yanvar qırğını törədildi.

1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə sovet ordusu, tərəfindən xəbərdarlıq edilmədən Bakı və Sumqayıt şəhərlərinə, habelə, ölkəmizin digər şəhər və rayonlarına tanklar və digər ağır hərbi texnikalar yeridilib, dinc əhali atəşə tutulub, milliyyətindən, yaşından və cinsindən asılı olmayaraq, 150 nəfər silahsız mülki şəxs, o cümlədən, uşaqlar, qadınlar və yaşlılar amansızcasına öldürülüb, hətta yaralıları çıxaran təcili tibbi yardım maşınları silahlı hücuma məruz qalıb, qadağan edilmiş silah və sursatdan istifadə edilib. Paytaxt və başqa ərazilərdə 744 dinc, günahsız insan yaralanıb, yüzlərlə adam itkin düşüb, 841 nəfər qanunsuz olaraq həbs edilib. Hadisə ilə bağlı məlumatın əhalidən gizlədilməsi məqsədilə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təşkil etdiyi təxribat nəticəsində, Respublika Televiziyasının enerji bloku partladılıb.

O dövrdə Ümummilli Liderimiz Heydər Əliyev bu qanlı hadisələrlə bağlı Moskva şəhərində Azərbaycan xalqı adından sərt bəyanat vermiş, 20 Yanvar faciəsində xalqımıza qarşı törədilmiş qırğına siyasi qiymət verilməsini və günahkarların cəzalandırılmasını tələb etmiş, daha sonra Prezident olduğu dövrdə Onun tövsiyəsi ilə Azərbaycan Respublikasının Milli Məclisi xüsusi sessiya keçirmiş və bu qanlı hadisəyə siyasi-hüquqi qiymət verilmişdir.

20 Yanvar faciəsini törədən cinayətkarların ədalət mühakiməsinə cəlb olunması üçün kifayət qədər hüquqi əsaslar mövcuddur. Bu hadisə, hər şeydən əvvəl, BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt və digər beynəlxalq hüquqi sənədlərin, Konvensiyaların tələblərinin pozulması faktıdır. Eyni zamanda, 20 Yanvar faciəsi Beynəlxalq Cinayət Məhkəməsi Statutunun 7-ci maddəsinə əsasən, insanlıq əleyhinə cinayət kimi tövsif edilə bilər. Çünki hadisə zamanı insanlar məhv edilib, məcburi yoxa çıxarılıb, siyasi, irqi, etnik, mədəni və ya cinsi motivlərə görə təqib edilib, işgəncə, qəsdən güclü iztirablara səbəbolma və ya ağır bədən xəsarətləri, yaxud fiziki və ya psixi sağlamlığa mühüm ziyan vurmaqdan ibarət olan digər qeyri-insani hərəkətlərə yol verilib.

Faciə zamanı qətlə yetirilmiş, müxtəlif millətlərdən olan Azərbaycan Respublikası vətəndaşlarına ölkə Prezidentinin müvafiq Fərmanına əsasən, "20 Yanvar Şəhidi" fəxri adı verilib. Eyni zamanda, "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" Sərəncama əsasən, müxtəlif tədbirlər həyata keçirilir. Bu şəxslərə dövlət tərəfindən müavinət, şəhid ailələrinə isə Prezident təqaüdü verilir.

Hər il olduğu kimi, bu il də dünya ictimaiyyətinin diqqətini həmin qanlı hadisələrə yönəltmək məqsədilə müvafiq Sərəncamla "20 Yanvar faciəsinin 30-cu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib və icra olunur. 20 Yanvar hadisələrinin beynəlxalq hüquqa əsasən, beynəlxalq cinayətlərin ən ağır növlərindən olan insanlıq əleyhinə cinayət kimi tövsif edilməsi üçün kifayət qədər hüquqi sənədlər, eyni zamanda, bu qətliamın icrasına əmr verənlərin və törədənlərin, xüsusilə də, o vaxtkı SSRİ rəhbərliyinin cinayət məsuliyyətinə cəlb olunması üçün yetərincə əsaslar mövcuddur. Azərbaycan Respublikası 20 Yanvar faciəsi ilə əlaqədar reallıqları və qətliamı törədənlərin cəzalandırılmalarının zəruriliyini dünya ictimaiyyətinin diqqətinə təqdim edir.

Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələri, o cümlədən, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyondan artıq soydaşımızın hüquqlarının pozulması faktı beynəlxalq birliyin nəzərinə çatdırılır. Azərbaycanın mövqeyi ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində ədalətli həllini tapmalı, zəbt olunmuş Azərbaycan torpaqları qeyd-şərtsiz azad olunmalı, qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmaları təmin edilməlidir. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ilə əlaqədar Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul ediblər. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və sərhədlərinin toxunulmazlığına dəstək ifadə edilib.

Biz beynəlxalq qurumları və bütövlükdə, dünya ictimaiyyətini insan hüquqlarının kobud şəkildə pozulması ilə müşayiət olunan, bütövlükdə, beynəlxalq hüquq normalarına zidd olan bu cinayət hadisəsinə hüquqi qiymət verməyə çağırırıq".

***R.HÜSEYNOVA***

## YAP Zərdab rayon təşkilatında müşahidəçilərlə görüş keçirilib

Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatında cari ilin 9 fevral tarixində keçiriləcək növbəti parlament seçkilərində YAP tərəfindən müşahidəçi təyin edilmiş şəxslərlə görüş keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova 9 fevral parlament seçkiləri və partiyanın seçkilərə hazırlığı ilə bağlı ətraflı məlumat verərək, müşahidəçilərin hüquq və vəzifələrindən danışıb. Bildirib ki, müşahidəçilər seçici siyahıları ilə tanış olmaq, seçicilərə seçki bülletenlərinin verilməsini müşahidə etmək, səsvermə günü seçki məntəqəsinə daxil olaraq prosesi izləmək, seçicilərin sayını, səs verilmiş və etibarsız hesab edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək, müşahidələrin nəticələrinin seçki komissiyasının protokolunda qeyd edilməsini tələb etmək və s. hüquqlara malikdirlər. P.Mahmudova müşahidəçilərin diqqətinə çatdırıb ki, səsvermə prosesində demokratiyanın tələblərinə uyğun obyektivliyin gözlənilməsi müşahidəçilərin riayət etməli olduqları başlıca vəzifələrdir. Bu baxımdan, onlar ayıq-sayıq olmalı, qanunun və seçicilərin hüquqlarının təminatına çalışmalıdırlar. Nizam-intizamlı olmalı, öz hüquq və vəzifələrindən irəli gələn məsələlərin həllində səmərəli surətdə keyfiyyətlə müşahidə aparmalıdırlar.

Görüşdə, həmçinin, birgə maraq doğuran suallar ətrafında fikir mübadiləsi aparılıb.

***Zümrüd BAYRAMOVA***

## YAP Astara rayon təşkilatında müşahidəçilərlə treninq keçirilib







Dünən YAP Astara rayon təşkilatında 9 fevralda keçiriləcək parlament seçkləri ilə əlaqədar dairə və məntəqələr üzrə Yeni Azərbaycan Partiyası tərəfindən təyin olunmuş müşahidəçilərlə treninq keçirilib.

Tədbiri YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov açaraq, parlament seçkilərini müşahidə edən YAP tərəfindən təyin olunun müşahidəçilərin daha aktiv olmalarını tövsiyə edib. Görüşdə məsələ ilə bağlı müşahidəçilərdən Rafiq Əliyev, Kamil Kamilov, Fazil Məmmədov çıxış edərək, seçkidə şəffaf müşahidə aparmağın hər bir Azərbaycan vətəndaşının borcu olduğunu bildiriblər.

***R.HÜSEYNOVA***





## Azərbaycan ötən il ən çox İtaliyaya məhsul göndərib

Keçən il Azərbaycan ən çox İtaliyaya məhsul ixrac edib. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a bildirilib ki, 2019-cu ildə ixracda əsas ölkələrin siyahısında ilk sırada İtaliya olmaqla, Türkiyə və İsrail qərarlaşıb. İtaliyaya ixracın dəyəri 5 milyard 638,6 milyon ABŞ dolları, Türkiyəyə 2 milyard 862,6 milyon dollar, İsrailə isə 1 milyard 331,6 milyon dollar olub. Azərbaycanla ticarət dövriyyəsində əsas ölkələrin siyahısında ilk üçlükdə isə İtaliya, Türkiyə və Rusiya dayanır. İtaliya ilə ticarət dövriyyəsi 6 milyard dollar, Türkiyə ilə 4 milyard 509,4 milyon dollar, Rusiya ilə 3 milyard 22 milyon dollar təşkil edib.

## ƏDV-nin qaytarılması ilə bağlı əsasnamə yaxın bir ay ərzində hazır olacaq





Əlavə dəyər vergisinin (ƏDV) qaytarılması ilə bağlı əsasnamə yaxın bir ay ərzində hazır olacaq. Bu barədə Vergilər nazirinin müavini İlkin Vəliyev 2019-cu ilin yekunlarına dair mətbuat konfransında deyib. "Əgər hər hansı texniki problem yaranmasa, fevralın 1-dək ƏDV-nin qaytarılması ilə bağlı əsasnamə hazırlanıb təqdim ediləcək. Eyni zamanda, 2021-ci ilədək bütün ictimai-iaşə müəssisələrində nəzarət kassa aparatları quraşdırılacaq", - deyə o diqqətə çatdırıb.

***R.HÜSEYNOVA***













# 20 Yanvar: Milli rəşadət tariximizin müəmmalı məqamları

(II yazı)

M.Qorbaçovun sağ əli - Primakov və onun "uşaqlar"ı! SSRİ dağıldıqdan sonra başqa bir ciddi məlumat, yenə Rusiya mətbuatında gündəmə gəldi. Keçmiş Sov.İKP MK Siyasi Bürosunun üzvü Y.Primakov M.Qorbaçov hakimiyyətə gəldikdən sonra xüsusi tapşırıqla bütün respublikalarda ziyalılardan ibarət qruplar yaradıb, idarə edirmiş. Azərbaycanda da "Gənc ziyalılar klubu" deyilən bir qurum yaranmış və Polyaniçkonun (Azərbaycan KP MK-nin ikinci katibi idi) rəhbərliyi altında, dolayısı ilə isə Primakovun təlimatı ilə fəaliyyət göstərirmiş. Qəribədir ki, yuxarıda adlarını çəkdiyim həmin simaların tam əksəriyyəti həmin klubun üzvləri olmuşlar. Keçmiş SSRİ-nin hər yerində, o cümlədən, Azərbaycanda "Primakovun uşaqları" kimi tanınan həmin "fəallar", məhz SSRİ DTK-nın təlimatı üzrə fəliyyət göstərmişlər ki, Bakıda da 20 Yanvar ərəfəsində hadisələrə "nəzarət" etmək üçün, məhz Y.Primakov gəlmiş, iflic olmuş şəhəri istədiyi istiqamətə də, məhz o yönləndirmişdi. Burda daha bir fakta müraciət etmək yerinə düşər. 1989-cu ilin noyabr ayında Bakı-Xankəndi qatarında, bizim təşkil etdiyimiz nəzarətçi gənclər iki nəfər şübhəli şəxsi Ağdamdakı qərargaha gətirdilər. Sonradan onların saxlandığını bilən Azərbaycan DTK rəhbərliyindən zəng vurub, hər ikisini təcili Bakıya göndərməyi xahiş etdilər (O zaman şəxsən mənə zəng vuran və hər iki şübhəlini Bakıya göndərməyi təkidlə xahiş edən polkovnik rütbəli həmin şəxs bu gün də yaşayır). Onların dediklərini icra etdik və göndərdik. Lakin Qrişa adlı, milliyyətcə erməni olan birinin cibindən bir kağız çıxmışdı. Həmin kağızda rus dilində yazılmış "Azərbaycan SSR ərazisində çaxnaşma və qarşıdurma planı" var idi. Mən həmin kağızı özümlə götürüb Bakıya gəldim. O zaman hər bir hərəkat fəalının, o cümlədən mənim də çox inandığım İsa Qənbərlə görüşüb, kağızı ona verdim və Moskvanın nəsə plan hazırladığını bildirdim. O zaman surətçıxaran (yəni kserks) olmadığından, sənədin əslini ona verməli oldum. Kağızı məndən ciddi bir sənəd kimi aldı və "tədbir görməli olacağıq" deyib çantasına qoydu. 20 Yanvar baş verdikdən sonra İ.Qənbərdən həmin sənəd haqqında soruşanda, ona belə bir sənəd vermədiyimi və mənim yuxu gördüyümü (?) dedi. 1998-ci ildə, məhz İ.Qəmbərin inhisarında olan qəzetlərdən birində hüquq-mühafizə orqanları axtarış apararkən kompüterdə "Bakı şəhərində qarşıdurma və çaxnaşma planı" adlı bir sənədin aşkar edildiyini qəzetlər yazdı. O zaman qəzetlərdə dərc olunan həmin sənəd mənim doqquz il öncə İ.Qəmbərə verdiyim rus dilində olan sənədin tərcüməsi idi, sadəcə, "Azərbaycan SSR ərazisində" əvəzinə "Bakı şəhərində" yazılmışdı. Məncə, izaha ehtiyac yoxdu. Sözümüzün sonu olmasa da, bu yazımızın "son söz" əvəzi. Yazıda açıqladığım bəzi tükürpədən faktlardan söhbət açmaqda məqsədim heç də xalqımıza qarşı törədilmiş qətliamın əsl səbəbkarlarının kölgə altına alınması deyil. Sadəcə, M.Qorbaçov və bu qanlı cinayətdə əli olan digər keçmiş SSRİ rəhbərləri ilə bağlı, məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə ölkə Parlamenti tərəfindən gərəkli siyasi-hüquqi qiymət verilmiş və ədalətdən danışıb, ədalətə arxa çevirən indiki dünyada onların layiqincə cəzalanmaları üçün kifayət qədər sanballı sənəd uzun illərdir ki, ortadadı. Lakin xalq arasında yaxşı bir deyim var: düşməninndən qorxma, yanında üzünə gülüb ayağının altını eşəndən qorx! Bəlkə də içimizdəki xəyanət ünsürləri olmasaydı, qətliamın həcmi o qədər böyük olmazdı və ona vaxtında lazımi hüquqi qiymət verilməsi mümkün olardı. Yazının əvvəlində yadellilərin tarixən xalqımızı içimizdən olan emissarların və "mənəmlik" xəstəliyinə düçar olanların əli ilə vura bildiklərini qeyd etməyim də, məhz təkrarlanan tariximizin ən yeni dövründə baş verənlər haqqında açıqladığım faktlar da yeni nəslin xəbərdar olması istəyindən irəli gəlir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də, dönə-dönə qeyd etdiyi kimi, yaxın keçmişimizdə buraxılan səhvləri obyektivliklə öyrənmədən, onu təhlil edib lazımi nəticə çıxarmadan, gələcəyimizlə bağlı doğru-düzgün qərar verə bilmərik. Hesab edirəm ki, ən yeni tariximizin 20 Yanvar səhifəsinin hərtərəfli öyrənilməsi, saf-çürük edilməsi, gələcəyimizin qarantı olacaq gənclərimizə havasu qədər vacibdir. Yazının hazırlanmasında başlıca məqsəd də bundan ibarətdir. Yazıya əlavə: Yazımda qeyd olunan məqamların heç birinin şəxsi təxəyyülümün məhsulu olmadığına, gerçək həqiqət olduğuna hər kəsin əmin olmasını istərdim. Şübhəsi olanlara əldə olan faktları təqdim etməyə, fakt olmayan məqamlara isə, inanmaları üçün istənilən addımı atmağa hazıram.

**TƏHMASİB NOVRUZOV**



# "Milli Şura"- "siyasi mühacir" bazarı

*"Mühacir" adı ilə "yol göstərən" Əli Kərimli - "baş bazarkom"*

**Dəfələrlə bu atalar sözünü işlətsək də, məqamı gələndə, təkrar demək heç nəyə dəlalət etmir. Yenə də parlament seçkiləri ərəfəsi, xüsusilə də, "Milli Şura"da "mühacir" adı ilə "yol göstərən" Əli Kərimli "baş bazarkom" olaraq, öz çirkin əməllərini həyata keçirməkdədir. Ancaq bu "baş bazarkom," abırsızcasına hələ də qanmır ki, Azərbaycan xalqı Ə.Kərimli və onun ətrafında olanları çoxdan tarixin qaranlığına göndərib və xalq-iqtidar birliyi bu gün möhkəm təməllər üzərində Azərbaycanı irəliyə aparır. Çünki xalq öz dövlət başçısının yanındadır.**

### Abırsızda "abır" olmaz

YAP İcra katibinin müavini Siyavuş Novruzov bildirib ki, "siyasi mühacir" "istehsalçılarda" nə abır?! Abırsızdan "abır" gözləmə. O bildirib ki, ümumilikdə götürdükdə dünyanın hər yerində cinayət hadisələri baş verir və buna qarşı müvafiq cəza tədbirləri görülür: "Əgər bir hadisə törədilirsə, birinci növbədə, onun səbəbləri araşdırılır və bununla bağlı ölçü götürülür. Radikal müxalifət o qədər abırsız və çarəsiz hala düşüb ki, artıq məişət zəminində olan hadisələri, hətta yol qəzalarını da ictimailəşdirir və bu hadisələrə siyasi rəng verməyə çalışır. Adi bir hadisə ilə bağlı sosial şəbəkələrdə, internet televiziyalarında müzakirələr açırlar, bu hadisələri də dövlətin "ayağına yazmağa" çalışırlar. Təbii ki, bu istiqamətdə onlara xaricdən göstərişlər verilib. Müxtəlif dövlətlərdən, beynəlxalq təşkilatlardan Azərbaycana müşahidəçilər gələcək və seçki prosesini izləyəcəklər. Radikal müxalifət isə bu ərəfədə seçki prosesinə kölgə salmaq üçün belə çirkin yollara əl atır".

S.Novruzov onu da vurğulayıb ki, bunlar radikal müxalifətin çox uğursuz cəhdləridir: "Onların məqsədi odur ki, nə olur-olsun, Azərbaycan haqqında pis bir fikir formalaşsın. Ancaq onlar nə qədər çalışsalar da, məqsədlərinə nail ola bilməyəcəklər. Çünki xalq onların hansı məramа xidmət etdiyini yaxşı bilir və görür. Odur ki, radikal müxalifət xalqın etimadını tamamilə itirib və xarici qüvvələrin əlində alətə çevrilib".

Bəli, elə bu günlərdə həmin "Milli Şura"nın "siyasi mühacir" biznesinin "baş bazarkomu" ilə yanaşı, Müsavatın "siyasi mühacir istehsal edənləri" Arif Hacılı-İsa Qəmbər cütlüyünün əməlləri ilə bağlı faktlar üzə çıxdıqdan sonra sosial şəbəkələrdə özlərini "aydan arı, sudan duru" göstərməyə çalışırlar.

Ancaq "Müsavat"ın sədri - lideri, başqanı, təsərrüfat müdiri və ilaxır - Arif Hacılı-



nın "Anbardar Məmmədxan", "Milli Şura"nın "siyasi mühacir" biznesinin "baş bazarkomu" kimi tanınan Ə.Kərimlilərin partiya rəhbərliyinin vəsiqə və sənəd alveri ilə məşğul olması ilə də bağlı dəfələrlə yazmışıq. Faktlarla sübut edilib ki, bu satqınlar və ətraflarındakı adamlar Avropadakı "mühacirlər"ə vəsiqə satışı şəbəkəsindən ela xəbərdar olsalar da, bunu danırlar. İş biabırçı mərhələsinə çatsa da, özlərinə sığışmırlar. Bax, budur abırsızlıq!

Xədicə İsmayıl:

### "AXCP və Müsavat rəhbərliklərində istefa mədəniyyəti də yoxdur, üstəlik, abırsızlıqdır"

Dağıdıcı müxaliflər Vətəni qranta satan abırsızlardır. Hətta bu abırsızlığa dözə bilməyən jurnalist Xədicə İsmayıl belə, "Faceboook" profilində yazıb: "AXCP və Müsavat rəhbərliklərində istefa mədəniyyəti də yoxdur, üstəlik, abırsızlıqdır. Halbuki A.Hacılıda, Ə.Kərimlidə siyasətçiliyin "s" hərfi olsa idi, çoxdan istefa verməli idilər". Bu açıqlamanı görəndə, "daş qayaya rast gəlib" dedim. Bəs nə bilmişdiniz, vaxtilə saxta partiya bileti və "mühacir statusu" satdığınız adamlar indi sizin özünüzü çox ucuz "qiymətə" satırlar.

Onu da qeyd edək ki, elə bu açıqlamasından sonra A.Hacılı və Ə.Kərimlinin dəstəsi X.İsmayılın üzərinə hücuma keçiblər. Onlar çox aqressiv və kobud ifadələrlə "rəqib"i susdurmağa çalışsalar da, "Milli Şura" və Müsavatın siyasi alver kontoruna çevrildiyini elə yazdıqları ilə bir daha sübut ediblər.

**Rəfiqə HÜSEYNOVA**

SİYASİ RAKURS

# Əli Kərimli "Milli Şura"nı dağıdır?

*Qurumda AXCP sədrinə qarşı qəzəb yaranıb*

**Kimsəyə sirr deyil ki, yarandığı dövrdən daxilində çaxnaşmalar, qarşıdurma və ziddiyyətlər yaşayan və əsasən, xarici dairələrdən təlimatlar alaraq, AXCP sədri Əli Kərimlinin dirijor çubuğu ilə idarə olunan "Milli Şura" hazırkı dövrə qədər dəfələrlə istefalara məruz qalıb. Bunun ilk səbəbi isə, əlbəttə ki, AXCP-nin bu qurumu öz maraqlarının girovuna çevirməsi olub.**



Yeri gəlmişkən, bu qurumun sözdə "fəxri sədri" hesab olunan, lakin qurumla bütün əlaqələrini pozan kinodramaturq Rüstəm İbrahimbəyovun bir fikrini xatırlatmaq yerinə düşərdi. Etirafda bulunan İbrahimbəyov deyib ki, hələ "Milli Şura"nı yaradanda, bildirdi ki, bu birləşmədə bir sünilik var, yəni "Milli Şura" amorf bir qurumdur.

### Məsuliyyət AXCP sədrinin boynundadır!

Məhz bu reallıq sonradan göstərdi ki, müsavatçıların və ayrı-ayrı şəxslərin ardıcıl surətdə "Milli Şura"nın qapısını çöldən və sədri şəkildə çırpıb-getmələri prosesi hazırkı məqamda da davam edir. Maraqlısı da budur ki, istefa verənlər, demək olar ki, eyni ittihamlarını səsləndirirlər. "Milli Şura"da yaranan böhranlı vəziyyətə görə, AXCP-nin məsuliyyət daşıdığını bildirən narazılar qurumda dominantlıq iddiasının, başqalarının maraqlarına qarşı addımın atılmasının bu birliyin missiyasını dağıtdığını bəyan edirlər. İstər Müsavatın sabiq başqanı İ.Qəmbər, istər E.Namazov, istər R.Quliyev, istər Sülhəddin Əkbər, istər Qələndər Muxtarlı və İsgəndər Həmidov, istərsə də digərləri bənzər ittihamları ilə birbaşa Ə.Kərimlini hədəfə alıblar.

### Söz yox ki, həmin qəzəb gec-tez yenidən püskürəcək

Misal üçün, Müsavat partiyasının eksbaşqanı İ.Qəmbər yaxşı başa düşürdü ki, Ə.Kərimli bir vaxtlar AXCP sədrinin müavini olmuş Cəmil Həsənlini qurumun başına gətirməklə, "Milli Şura"nı öz maraqlarını girovuna çevirir. Ona görə də, az müddət sonra oranı tərk etdi.

Bir neçə il öncə, AMDP də bu reallığı diqqətə alaraq, "Milli Şura" ilə vidalaşdı və Ə.Kərimli ilə yollarını ayırdı. Necə deyərlər, cidanı çuvalda gizlətmək də mümkün deyil. Bu gün "Milli Şura"da AXCP-yə, daha doğrusu, özünü "lider" kimi zorla ictimai rəyə sırımağa cəhdlər göstərən Ə.Kərimliyə qarşı bir qəzəb var. Söz yox ki, həmin qəzəb gec-tez yenidən püskürəcək. Gedənlərin və bundan sonra da gedəcək şəxslərin münasibətləri də, məhz bu məsələnin göstəricisidir.

**Rövşən RƏSULOV**



# Türkiyə Parlamentində "Dünyada sülh: Qarabağ - Azərbaycandır!" layihəsinə start verilib

**20 Yanvar faciəsinin 30-cu ildönümü ərəfəsində Türkiyə Böyük Millət Məclisində "Dünyada sülh: Qarabağ - Azərbaycandır!" adlı guşə təşkil edilib. AZƏRTAC xəbər verir ki, guşədə Azərbaycan həqiqətlərinə həsr olunmuş kitablar sərgilənib. Onların arasında Sabir Şahtaxtının "Soyqırımdan Xocalıya", "Böyük Ermənistan xülyası: faktlar və sübutlar", Kəbutər Haqverdinin "O gecə qar qan rəngindəydi" əsərləri və digər nəşrlər olub.**

Azərbaycan diasporunun fəalları Samir İsgəndəroğlu, Mehriban Paşayeva, Vəfa Aktuz və Sara Zeynalova nəşrlər barədə ziyarətçilərə ətraflı məlumat veriblər. Sərgini ziyarət edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana, sabiq baş nazir Binəli Yıldırıma, Türkiyə Parlamentinin sədri Mustafa Şentopa, Milliyətçi Hərəkat Partiyasının sədri Dövlət Bahçalıya, digər fraksiya rəhbərlərinə və millət vəkillərinə kitablar hədiyyə olunub.

"Dünyada sülh: Qarabağ - Azərbaycandır!" adlı sərginin təşkil olunmasında məqsəd - Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması prosesinə töhfə vermәkdir. Soydaşlarımız bu layihəni Türkiyənin ali təhsil müəssisələrində, mədəniyyət mərkəzlərində və qalereyalarında da həyata keçirmək niyyətindədirlər.

# "Keçən il ÜDM-in real artımı 2,2 faiz, qeyri-neft sektorunda isə 3,5 faiz olub"

**2019-cu ildə ümumi daxili məhsulun (ÜDM) real artımı 2,2 faiz, qeyri-neft sektorunda isə 3,5 faiz təşkil edib. Qeyri-neft sektorunda sənaye istehsalı 13,9 faiz artıb, qeyri-neft ixracının həcmi 1,9 milyard ABŞ dollarını ötüb. AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadiyyat naziri Mikayıl Cabbarov yanvarın 16-da ötən ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında deyib.**

Nazir qeyd edib ki, keçən il qeyri-neft sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyaların real artım tempi 3,5 faiz təşkil edib. Qeyri-neft sektoruna investisiyaların cəmi investisiyalarda xüsusi çəkisi 2018-ci ildəki 65,2 faizdən 2019-cu ildə 69,7 faizə yüksəlib: "Bununla yanaşı, ötən dövr ərzində əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə mühüm addımlar atılıb. Nəticədə əhalinin gəlirlərinin nominal artım tempi 7,4 faiz təşkil edərək orta illik inflyasiyanı (2,6 faiz) üstələyib. Həmçinin orta aylıq əməkhaqqının artım tempi 16,4 faiz təşkil etməklə, əhalinin gəlirlərinin artım tempini əhəmiyyətli üstələyib ki, bu da həm əməkhaqlarının artırılması, həm də əmək bazarının leqallaşması prosesləri ilə bağlıdır".



# Bakıda altı ay əvvəl törədilən cinayətin üstü açılıb

Paytaxtda 6 ay əvvəl mağazadan oğurluq edən keçmiş məhkum tutulub. Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 2019-cu il iyulun 3-də Xətai rayonu, Telnov küçəsində yerləşən mağazaların birində vətəndaş Y.Muşkiyevanın əl çantasından maaş kartı və dəyəri bilinməyən qızıl qolbağını oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunan (Cinayət Məcəlləsinin 177-ci, 234-cü maddələri) 1978-ci il təvəllüdlü V.Əliyev idarənin Cinayət Axtarış İdarəsinin əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən olunaraq saxlanılıb. Hadisə ilə bağlı araşdırmalar davam etdirilir.

# Sevilən yerli markaların istehsal edildiyi Bakı Qida və Yağ Fabrikinə ziyarət təşkil edildi





***Ö**lkənin qeyri-neft sektorunun aparıcı şirkətlərindən olan "Azərsun Holdinq", ənənəsinə sadiq qalaraq, nəzdində fəaliyyət göstərən istehsal müəssisəsinə ziyarət təşkil edib. Müxtəlif media qurumları və Azərbaycan Kulinariya Mütəxəssisləri Assosiasiyasının üzvləri üçün Bakı Qida və Yağ Fabrikinə tur təşkil edilib.*

Qonaqları qarşılayan müəssisənin rəhbəri Şahəddin İbrahimov fabrikin 1997-ci ildən fəaliyyət göstərdiyini və 2014-cü ildə Sumqayıtda yerləşən "Azərsun Sənaye Parkı"na köçürüldüyünü bildirdi. Açılış mərasimində ölkə başçısı Prezident İlham Əliyevin iştirak etdiyi istehsal müəssisəsi tam avtomatlaşdırılmış və müasir avadanlıqlarla təmin edilmişdir. İllik istehsal həcmi 270 min ton olan istehsal müəssisəsi Avropanın ən müasir fabriklərindəndir. Bakı Qida və Yağ Fabriki ilə tanışlıq çərçivəsində "Azərsun Holdinq"in Araşdırma və Təkmilləşdirmə Şöbəsinin baş mütəxəssisi Tural Babayev burada keyfiyyətə nəzarətin ən yüksək səviyyədə təyin edildiyini bildirib və İSO sertifikatının tələblərinə cavab verdiyini söyləyib. Rafinasiya sahəsini ziyarət edən qonaqlar burada xammalın emalı və dezodorasiyası kimi proseslərin ən müasir avadanlıqlarla həyata keçirildiyinin şahidi olublar. Müəssisənin laboratoriyasını ziyarət edən jurnalistlər və kulinarlar buradakı müasir avadanlıqlar və yaradılmış şəraitlə tanış oldular və onlara gün ərzində, istehsalın bütün mərhələlərində məhsullar üzərində 1000-1500 testin edildiyi barədə məlumat verildi.

Daha sonra qonaqlar "Final", "Zeytun bağları" kimi istehlakçılar tərəfindən böyük rəğbətlə qarşılanan duru yağların istehsal edildiyi sahə ilə tanış olublar. Jurnalistlərə və kulinarlara "Azərsun Holdinq"in Müşahidə Şurasının sədri Abdolbari Goozalın keyfiyyətə və texnoloji yeniliklərin tətbiqinə xüsusi həssaslıqla və tələbkarlıqla yanaşdığı bildirilib və bu sahədə də, digərlərində olduğu kimi, müasir avadanlıqlardan istifadə edildiyi qeyd edilib. "Zeytun bağları" barədə məlumat verilərkən, bu yağın Abşeron rayonu ərazisindən toplanılan zeytundan emal edildiyi vurğulanıb. Ziyarət çərçivəsində, son illərin ən sevilən markalarından olan kərə ətirli "Möcüzə" spred yağının da istehsal prosesi nümayiş etdirilib.

Bakı Qida və Yağ Fabriki, ziyarəti çərçivəsində qonaqlara "Bizim Süfrə" mayonezlərinin və ketçuplarının da istehsal prosesi nümayiş etdirilərək, bu yerli markaların tərkibinə heç bir qatqı maddəsinin əlavə edilmədiyi bildirilib. Həmçinin, burada istehsal olunan ketçupların istehsal edilməsində təbii yerli pomidorlardan istehsal edildiyi qeyd edilib. Bundan əlavə, məhsullar azərbaycanlıların ağız dadına uyğunlaşdırılaraq, istehsal edilir ki, bu səbəbdən, istehlakçılar tərəfindən böyük rəğbətlə qarşılanır. Gəzinti çərçivəsində xama dadlı mayonezin istehsalı da qonaqların marağına səbəb oldu.

**ZAKİR**

# Transxəzər fiber-optik kabel xətləri Avropa-Asiya arasında Azərbaycanı rəqəmsal mərkəzə çevirəcək

***A**zərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral internet provayderi AzerTelecom şirkəti ölkənin Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün regional rəqəmsal mərkəzə çevrilməsi istiqamətində "Azerbaijan Digital Hub" proqramının icrasına davam edir.*

Azerbaijan Digital Hub | AzerTelecom

Proqramın ilk fazasında şirkət ölkə daxilində və xaricində dayanıqlı magistral infrastruktur quruculuğu üzrə layihələr reallaşdırır. Hazırda Azərbaycan-Qazaxıstan və Azərbaycan-Türkmənistan marşrutları üzrə Xəzərin dibi ilə fiber-optik kabel xətlərinin çəkilməsi layihələrinə başlanılıb. Bu marşrutlar üzrə fiber-optik kabel xətlərinin çəkilməsi məqsədilə 19 mart 2019-cu il tarixdə Azərbaycanla Qazaxıstan, 28 noyabr tarixində isə Azərbaycanla Türkmənistan arasında dövlətlərarası sazişlər imzalanıb.

Sazişlərə əsasən, Azərbaycan-Qazaxıstan marşrutu üzrə 400 km uzunluqda xəttin (TransCaspian Fiber Optic - TCFO) çəkilişini Azərbaycan tərəfdən AzerTelecom, Qazaxıstanın isə KazTransCom və Transtelecom şirkətləri icra edəcək. Layihənin 2021-2022-ci illərdə tamamlanması planlaşdırılır. Ötən ilin noyabr ayında Qazaxıstanın Aktau şəhərində Azərbaycan-Qazaxıstan marşrutu üzrə layihənin təməlqoyma mərasimi keçirilib və tədbirdə hər iki ölkənin baş naziri, dövlət rəsmilərivə layihəni icra edən şirkətlərin rəhbərləri iştirak ediblər.

Azərbaycan-Türkmənistan marşrutunun uzunluğu isə 300 km olacaq və layihəni AzerTelecom və Türkməntelekom operatorları icra edəcək.

AzerTelecom şirkətinin baş direktoru Fuad Allahverdiyev bildirib ki, Qazaxıstan istiqaməti üzrə xəttin məlumat ötürmə gücü ən azı 4-6 terabit/s, Türkmənistan istiqaməti üzrə isə 2-3 terabit/s olacaq.

"Ölkə başçısı cənab Prezident İlham Əliyev ötən gün Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadəni qəbul edərkən Xəzərin dibi ilə fiber-optik kabel xəttinin çəkilişi məsələsinə toxunmuş, layihənin önəmli olduğunu bildirmiş və qeyd etmişdir ki, bir halda ki Azərbaycan artıq Avrasiyanın önəmli nəqliyyat mərkəzlərinin birinə çevrilib, ölkəmiz mütləq rabitə, internet və fiber-optik rabitə xətlərinin çəkilməsi istiqamətində də mərkəzə çevrilməlidir. Cənab Prezidentin diqqət mərkəzində olan bu strateji layihələrin "Azerbaijan Digital Hub" proqramı çərçivəsində icrası əsas hədəfimizdir" - deyə Fuad Allahverdiyev qeyd edib.

Xəzərin dibi ilə magistral xətlərin çəkilməsi ilə Avropa ilə Asiya arasında Azərbaycan vasitəsilə tarixi ipək yolunun üzərində rəqəmsal ipək yolu formalaşacaq. Qazaxıstan istiqaməti üzrə Qazaxıstanın və Çinin, Türkmənistan istiqaməti isə Türkmənistan, Özbəkistan, Əfqanıstan, Pakistan və Hindistanın data trafikinə olan ehtiyacı təmin ediləcək. AzerTelecom Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkətinin törəmə müəssisəsidir. AzerTelecom yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir.



# Haftar Liviyaya dair Berlin konfransına qatılacaq

**L**iviya Milli Ordusunun komandanı Xəlifə Haftar Liviya böhranının nizamlanması üzrə yanvarın 19-da Berlində keçirilməsi nəzərdə tutulan konfransda iştirak etməyə razılaşıb. Al Hadath telekanalının yaydığı məlumata görə, Haftar konfransa qatılmağa razı olduğunu Almaniya Xarici İşlər nazirinə bildirib. Almaniya XİN-in başçısı Hayko Mass Haftarla danışıqlar aparmaq üçün bu gün Liviyanın şərqində yerləşən Benqazi şəhərinə gedib. Bir qədər əvvəl Al Jazeera telekanalı məlumat vermişdi ki, Liviya Milli Həmrəylik Hökumətinin rəhbəri Faiz Sarrac da Berlin konfransında iştirak edəcəyini təsdiqləyib.

# Sosial şəbəkələrin gənclərə təsiri



***"Sosial şəbəkə istifadəçiləri arasında, xüsusən, gənc nəslin nümayəndələri çoxluq təşkil edir. Onların bir çoxunun istifadə etdiyi sosial şəbəkələrdə "Facebook", "Twitter", "İnstagram", "Google+", "Vkontakte", "Odnoklassniki" və başqaları üstünlük təşkil edir".***

Bu fikirləri "Səs" qəzetinə açıqlamasında gənc könüllülərdən olan Tofiq Mövsümov bildirib. Onun sözlərinə görə, müasir həyatımızda informasiya-kommunikasiya texnologiyalarının rolu getdikcə artır. Texnologiyanın inkişafı sosial medianın bir qolu olan sosial şəbəkələrin həyatımıza yol tapmasına gətirib çıxarmışdır. "Sosial şəbəkələr artıq həyatımızın ayrılmaz bir parçasına çevrilib desək, yanılmarıq" - deyən T.Mövsümov onu da bildirib ki, artıq bir çoxları istəsə də- istəməsə də, sosial şəbəkələrsiz qala bilməz: "Hər bir sahədə olduğu kimi, sosial şəbəkələrdən istifadəyə münasibətdə də fikirlər müxtəlifdir. Bir qisim sosial şəbəkələrin bugünkü günümüzdə sosiallaşmaq, dünyanın ən ucqar nöqtəsində olan insanlarla ünsiyyət yaratmaq, fikir bildirmək və qarşılığında cavab almaq, ictimai həyatda baş verən aktual məsələlər ətrafında müxtəlif sorğular təşkil etmək, canlı yayım vasitəsilə iclaslar, müzakirələr keçirmək, olduğun yer haqqında məlumatları dostlarınla audiovizual şəkildə paylaşmaq və digər müsbət xüsusiyyətlərini qeyd edirlər. Digərləri isə düşünürlər ki, sosial şəbəkələr insanların internet asılılığını artırır, mənəvi dəyərləri məhv edir və real həyatdan uzaqlaşdırır".




"Əslində, ondan müzakirə, diskussiya üçün istifadə etmək, qarşılıqlı fikir mübadiləsi aparmaq daha faydalıdır" deyən gənc könüllü, təəssüflə qeyd edib ki, bizdə sosial şəbəkəsindən qədərindən artıq, özü də lazımsız yerə istifadə edənlərin sayı daha çoxdur: "Sosial şəbəkələrdən kimisi, sadəcə, vaxt keçirmək üçün istifadə edir ki, bu da, bir müddətdən sonra asılılıq yaradır. Artıq beş və ya on dəqiqə üçün daxil olduğun sosial şəbəkədə saatlarla qalırsan. İnsanın vaxtını "virtual dünya"ya sərf etməsi real həyatdan uzaqlaşmağa gətirib çıxarır ki, bu da, sonralar psixoloji problemlər yaradır. Əvvəlcə vərdiş, sonra isə xəstəlik dərəcəsində asılılıq yaradan sosial şəbəkələr insanlarda depressiya, yuxusuzluq, yorğunluq, aqressivlik, paxıllıq və digər xoş olmayan halların yaranmasına səbəb olur. Bir faktı da qeyd etmək istəyirəm ki, sosial şəbəkələr üzündən boşanan ailələrin sayı da artır".

T.Mövsümov sosial şəbəkələrin müsbət tərəfinə nəzər salaraq, buradan elmi yeniliklərlə, yeni iş yerləri ilə bağlı məlumat əldə etmək, hətta pul qazanmağın mümkün olduğunu da bildirdi: "Mənfi cəhəti isə insanları özündən asılı vəziyyətə salmasıdır. Mən hesab edirəm ki, müasir dövrdə sosial şəbəkələrdən düzgün istifadənin təbliği çox mühüm əhəmiyyətə malikdir".

**Nəzakət ƏLƏDDİNQIZI**

# Dünyanın ən böyük arxipelaqının iki adası okean suları altında qalıb



İndoneziyanın Cənubi Sumatra əyalətinə aid iki ada qlobal istiləşmə nəticəsində okean sularının altında qalıb. AZƏRTAC xarici KİV-lərə istinadən xəbər verir ki, "Ətraf mühit üzrə forum" təşkilatının hesabatına əsasən, Betet və Qundul adalarında suyun səviyyəsi 1-3 metr artıb. Qeyri-hökumət təşkilatları bildirib ki, təcili tədbirlər görülməsə, daha dörd ada okean sularının altında qalacaq. Qeyd edək ki, tərkibinə 18 min adanın daxil olduğu İndoneziya dünyanın ən böyük arxipelaqıdır.

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

17 yanvar

# Səs

Son səhifə

## İlin ilk "El-Klassiko"su nə vaxt olacaq?




Futbol üzrə İspaniya çempionatının XXVI turunda baş tutacaq "Real Madrid"-"Barselona" "El-Klassiko"sunun vaxtı açıqlanıb. Belə ki, 2020-ci ilin ilk "El-Klassiko"su martın 1-də "Santyaqo-Bernabeu" stadionunda keçiriləcək. Görüş Bakı vaxtı ilə saat 00:00-da start götürəcək. Xatırladaq ki, cari mövsümün "Kamp Nou"da keçirilən ilk matçında qapılara qol vurulmayıb. "Barselona və "Real Madrid" klubları La Liqada 19 turdan sonra 40 xal toplayıb və müvafiq olaraq birinci və ikinci pillələrdə qərarlaşıblar.

## "Karyeramda ən mürəkkəb məqam 2018-ci ildə Bakıda baş vermiş insident olub"

"Haas F1" komandasının pilotu Roman Qrojanın karyerasında son 4 ildə uğurlar da çox olub, uğursuzluqlar da. Lakin 2018-ci ildə Bakıda baş vermiş insident ən qəribə hadisə kimi yadda qalıb. O vaxt Qrojanın idarə etdiyi peloton təhlükəsizlik avtomobilinin arxasınca hərəkət edərkən çarxı rezini qızmış və maşın trasın hasarına çırpılmışdı. Hər şeyin təqsirini Markus Eriksonda görürdülər, hərçənd həmin anda İsveç pilot hadisə yerindən uzaqda idi.

AZƏRTAC xəbər verir ki, Qrojanın sözlərinə görə, bu hadisəni hələ də izah edə bilmir. O deyib: "Mən əsl səbəbi hələ də bilmirəm. Pilotluq baxımından bunun izahı yoxdur. İş elə gətirdi ki, təhlükəsizlik avtomobili trasda olarkən mənim maşınım aşdı.

Uik-end baş tutmadı, seçmə yarışlarda bircə dövrə də vura bilmədim və sonuncu olaraq start götürdüm. Yürüş prosesində 6-cı yerə qalxmışdım, sonra bu hadisə baş verdi. Bu hadisə "Haas F" komandasında mənim karyeramda ən mürəkkəb məqam olub".



## "Qalatasaray"ın oyununu azərbaycanlı hakim idarə edəcək

CEV

Azərbaycanın beynəlxalq dərəcəli hakimi Eldar Əliyev Avropa Voleybol Konfederasiyası (CEV) tərəfindən yeni təyinat alıb. Belə ki, həmyerlimiz kişi voleybolçular arasında CEV kuboku yarışlarında mübarizə aparan Türkiyənin "Qalatasaray" və Rumıniyanın "Municipal Arcada" komandaları arasında keçiriləcək görüşün baş hakimi olacaq. Həmyerlimizə belaruslu Konstantin Asipçik kömək edəcək. Turnirin 1/8 final mərhələsinin ilk oyunları çərçivəsində keçiriləcək görüş yanvarın 29-da İstanbuldakı Burhan Felek Voleybol Mərkəzində təşkil olunacaq.

## Binəqədidə "moyka" işçisi qaçırdığı "BMW" ilə qəza törədib

Daxili İşlər Nazirliyinin (DİN) 102 - Zəng Mərkəzinə müraciət edən Bakı şəhər sakini H.Məmmədov yanvarın 15-də saat 1 radələrində Binəqədi rayonunun Mircəlal küçəsindəki avtomobillərin yuyulması məntəqəsindən "BMW" markalı avtomobilinin qaçırıldığını bildirib. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətlə əlaqədar Binəqədi Rayon Polis İdarəsinin 7-ci polis bölməsinin əməkdaşları tərəfindən dərhal müvafiq tədbirlər görülüb. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində avtomobilin həmin məntəqədə işləyən Ağcabədi rayon sakini B.Cavadov tərəfindən qaçırılması və həmin gün saat 4 radələrində Sumqayıt şəhəri ərazisində idarə edərkən maneəyə vurması müəyyənləşib. B.Cavadov polis əməkdaşları tərəfindən saxlanılıb, araşdırma aparılır.



## Dünya təşviş içindədir: "Gizli virus" yayılır



Çinin Uhan şəhərində daha öncə rast gəlinməmiş virus ortaya çıxıb. Bu virusun sürətlə yayılması dünyanı narahat etməyə başlayıb.

SİA-nın xarici mətbuata istinadən verdiyi xəbərə görə, virus ilk dəfə ötən ilin dekabr ayında Çinin Uhan şəhərində yerləşən balıq bazarında qeydə alınıb.

İndiyə kimi 41 nəfərin virusa yoluxduğu və 7 nəfərin vəziyyətinin ağır olduğu bildirilib.

Yaponiya Səhiyyə Nazirliyi isə 30 yaşlı bir kişinin sözügedən virusdan öldüyünü açıqlayıb.

Mütəxəssislər virusun Şiddətli Kəskin Respirator Sindromu (SARS) xəstəliyinə səbəb olan virusla oxşarlıqlarının olduğunu, lakin eyni olmadıqlarını söyləyiblər.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi insanlara xəstəliyə qarşı diqqətli olmaları üçün xəbərdarlıq edib.

## Bədən hərarətini aşağı salan təbii vasitələr

Bədən hərarətinin yüksəlməsi immun sisteminin güclü olduğundan xəbər verir. Onun dərman və digər vasitələrlə aşağı salınması orqanizmin müdafiə qabiliyyətini zəiflədir. Mütəxəssislərin fikrincə, ciddi səbəb olmadan, yəni termometrin göstəricisi 38,5 dərəcəni keçmədikdə dərman qəbul etməyə ehtiyac yoxdur. Qızdırma orqanizmin infeksiya ilə mübarizəyə başladığını göstərir.

Həkim-fitoterapevt Elnur Eldaroğlunun AZƏRTAC-a verdiyi məlumata görə, bədən hərarəti yüksələndə onu normaya salmaq üçün bir sıra vasitələrdən istifadə etmək olar: "Hərarətin aşağı salınması üçün ilk olaraq xəstənin əynində qalın geyim varsa, onu çıxarmaq lazımdır. Həkimlər məsləhət görürlər ki, 1 litr ılıq suya 1 xörək qaşığı üzüm sirkəsi əlavə etmək və həmin məhlulla bədəni ovxalamaq xeyirlidir. Amma xəstə qızdırmadan titrəyirsə, onu ovxalamaq olmaz".

Hərarəti salmaq üçün ən yaxşı vasitələrdən biri də portağaldır. 4 dilim portağalın şirəsi sıxılaraq üzərinə 50 millilitr su əlavə edilir və dərhal içilir. Həmin qarışığı gündə 3-4 dəfə qəbul etmək olar. Temperaturu aşağı salan daha bir vasitə bədənin damarlar keçən hissələrinə, yəni ayaq, qol və büküş hissələrinə, alın və boyuna ılıq suda isladılmış dəsmalın qoyulmasıdır".





## ELAN

"Nar" abunəçilərinin nəzərinə

28.01.2020-ci il tarixindən etibarən, "Biznes 2" tarifində dəyişikliklər olacaq. Daha ətraflı məlumatı www.nar.az saytından əldə edə bilərsiniz.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600